# Azərbaycan sosialyönümlü dövlət modeli formalaşdırıb



9



6

## Rus ekspert: “Bakı-Moskva-Ankara formatı regionda vəziyyəti sabitləşdirməyə yönəlib”

## Fransa portalı: “Azərbaycanın əsas məqsədi bütün Qafqaz ölkələri arasında davamlı sülh və əməkdaşlıq ruhu yaratmaqdır”

Səs
№ 079 (6520) 7 may 2022-ci il. Qiyməti 60 qəpik




2

# Əbədiyaşar Lider!



## Mayın 10-da Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümüdür




## “Heydər Əliyev siyasəti: Modern dövlət quruculuğundan böyük zəfərə doğru”

3

## Media üçün dövlət rüsumu 10 dəfə azaldılıb



11

Azərbaycanda media üçün dövlət rüsumu 10 dəfə azaldılıb. SİA xəbər verir ki, bununla bağlı Prezident...

## Tank ordusunun Suvorovu- 2 dəfə Sovet İttifaqı Qəhrəmanı, general Həzi Aslanovun qələbə tarixi



15



## İkinci dünya müharibəsi iştirakçıları daim diqqət və qayğı ilə əhatə olunublar

Prezident İlham Əliyev 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş...

11

## Salahdan “Real”a MESAJ: “İntiqam almaq vaxtıdır!”




16

# “Azərbaycanda kənd təsərrüfatının inkişafı hökumətimiz üçün prioritetlərdən biridir”

## Prezident İlham Əliyev BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktorunu videoformatda qəbul edib

***Prezident İlham Əliyev dünən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Qu Donqyunu videoformatda qəbul edib.***

FAO ilə Azərbaycan arasında tərəfdaşlığın səviyyəsindən çox məmnun olduğunu bildirən Prezident İlham Əliyev görüşdə bildirib ki, yeddi il əvvəl imzalanmış razılaşma faktiki olaraq əməkdaşlığımızın yeni formatını yaradıb: ”Ümidvarıq ki, qarşıdakı illərdə biz bu səmərəli tərəfdaşlığı davam etdirəcəyik, xüsusilə indi - hər bir ölkə, o cümlədən Azərbaycan üçün ərzaq təhlükəsizliyi ilə bağlı məsələlərin getdikcə daha çox əhəmiyyət kəsb etdiyi bu çətin zamanda. Çünki kənd təsərrüfatı məhsullarının ixracında artım olduğuna baxmayaraq, biz hələ də kənd təsərrüfatı məhsullarını idxal edirik. Ona görə də, düşünürəm ki, bu, bizim ərzaq təhlükəsizliyi ilə bağlı gələcək planlarımızı, ümumi regional inkişafı müzakirə etmək və yeni çağırışları həll etmək baxımından vacibdir.

Görüşümüz zamanı qaldırmaq istədiyim məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı ilə bağlı planlarımızdır. Azərbaycan ərazilərinin işğaldan azad edilməsi nəticəsində hazırda biz infrastrukturun, o cümlədən kənd təsərrüfatının inkişafı baxımından həmin torpaqların işlənilməsinin aktiv mərhələsindəyik. Çünki işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı potensialı həqiqətən də çox böyükdür. Bu ərazinin fərqli təbiəti, iqlim qurşaqları və həm yerli istehlak, həm də ixrac üçün istehsalımızı əhəmiyyətli dərəcədə artırmaq imkanı var. Hazırda biz işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafının planlaşdırılması mərhələsindəyik və ona görə də sizin dəyərli tövsiyələriniz yüksək qiymətləndiriləcək.”



### İlham Əliyev: "Hər bir ölkə, o cümlədən Azərbaycan üçün ərzaq təhlükəsizliyi getdikcə daha çox əhəmiyyət kəsb edir"

Prezident İlham Əliyev bildirib ki, ümumilikdə Azərbaycanda kənd təsərrüfatının inkişafı hökumətimiz üçün prioritetlərdən biridir: ”Çünki, birincisi, hazırda hər bir ölkə üçün, ola bilsin ki, bir neçə il əvvəl olduğundan daha vacib olan ərzaq təhlükəsizliyidir. Bizim üçün ikinci məsələ odur ki, bu, bizim artmaqda olan qeyri-enerji ilə bağlı ixracımızın mühüm hissəsini təşkil edir. Bu ilin üç ayı ərzində Azərbaycanda qeyri-enerji ixracında artım 45 faiz olub. Əlbəttə ki, bu, məşğulluq baxımından əhəmiyyətlidir. Çünki əhalimizin demək olar ki, yarısı kənd yerlərində yaşayır. Ona görə də bu insanlar üçün kənd təsərrüfatı əsas gəlir mənbəyidir. Siz yəqin ki, bizim islahatlarımızdan, hökumətin fermerlərə verdiyi subsidiyalardan, dəstəkdən xəbərdarsınız. Fermerlər hər hansı vergidən, o cümlədən torpaq vergisindən azaddırlar. Həmçinin biz fermerlərə güzəştli, aşağı faizlərlə kreditlər veririk. Bütün bunlar kənd təsərrüfatının sürətli inkişafı üçün imkanlar yaradır. Lakin, əlbəttə ki, biz xüsusilə indi, ərazilər işğaldan azad ediləndən sonra hər şeyi düzgün planlaşdırmalı və müasir texnologiyalar tətbiq etməliyik.”

### FAO-nun baş direktoru: “Azərbaycanda ərzaq sistemlərinin və kənd təsərrüfatının inkişafı üçün böyük potensial var”

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktoru Qu Donqyu: ”Çox şadam ki, Sizin ölkənizdə səfərdəyəm, təkcə ona görə yox ki, nadir mövqedə yerləşirsiniz, həm də ona görə ki, ərzaq sistemləri və kənd təsərrüfatının inkişafı üçün böyük potensial var. Tərəfinizdən də güclü dəstəklənən aqroelektron ticarət və ya rəqəmsal kənd təsərrüfatı və ərzaq, habelə kənd yerlərinin rəqəmsal inkişafı xüsusi əhəmiyyətə malikdir. Mən bu təşəbbüsləri dünyada təşviq etmək və təşkilata üzv olan, ərazi baxımından Azərbaycan kimi ölkələrlə paylaşmaq istərdim.”

Bakıda keçirilən ”Gələcəyə baxış: Rəqəmsal kənd təsərrüfatına keçid” mövzusunda beynəlxalq konfransın önəmini vurğulayan Qu Donqyu ölkəmizə səfər edərək bu tədbirdə şəxsən iştirak etməsindən məmnunluğunu bildirib: ”Beləliklə, hesab edirəm ki, bu, bizim üçün Sizdən, həmkarlarınızdan öyrənmək baxımından yaxşı fürsətdir”.



SOCIÉTÉ INTERNATIONAL ISLAM FRANCE ÊTRE MUSULMAN EN OCCIDENT INTER-RELIGIEUX RUBRIQUES العربية ENGLISH



PRÉSIDENT DE L’AZERBAÏDJAN : LA PAIX EST NOTRE PRIORITÉ

Les 28 et 29 avril s’est tenu en Azerbaïdjan le forum international de Choucha, sur le thème « Caucase du Sud : développement et coopération » , organisé par l’Université ADA et le Centre d’analyse des relations internationale.



SOCIÉTÉ INTERNATIONAL ISLAM FRANCE ÊTRE MUSULMAN EN OCCIDENT INTER-RELIGIEUX RUBRIQUES العربية ENGLISH

par les forces arméniennes après leur défaite de la guerre de 44 jours, et notamment dans des zones de passage de civils et dans les villages. Ce minage avait pour objectif d’empêcher, ou de retarder, le retour des azerbaïdjanais dans les maisons dont ils avaient été chassés en 1992. Chaque jour, des civils sont tués par ces engins, par ailleurs interdits par les lois internationales.

# Fransa portalı: ”Azərbaycanın əsas məqsədi bütün Qafqaz ölkələri arasında davamlı sülh və əməkdaşlıq ruhu yaratmaqdır”

**Fransanın ”Musulmansenfrance” portalında ADA Universiteti və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilmiş ”Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfrans və Zəfər Qurultayı barədə məqalə dərc olunub.**

Məqalədə Prezident İlham Əliyevə istinadla bildirilib ki, Azərbaycanın həyata keçirdiyi bütün təşəbbüslərin əsas məqsədi işğal zamanı dağıdılmış ərazilərin bərpası, məcburi köçkünlərin öz evlərinə qayıtması ilə yanaşı, bütün Qafqaz ölkələri arasında davamlı sülh və əməkdaşlıq ruhu yaratmaqdır.

AZƏRTAC xəbər verir ki, yazıda ”Musulmansenfrance” portalının baş redaktoru Jan-Mişel Brönün də iştirak etdiyi konfransa 23 ölkədən 40-a yaxın ekspert və beyin mərkəzlərinin nümayəndələrinin bir araya gəldiyi, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində, xüsusilə də Şuşada müharibədən sonra infrastrukturun bərpası ətrafında müzakirələr aparıldığı diqqətə çatdırılıb. Həmçinin regionda davamlı sülhün bərpa edilməsi və münaqişədən sonra regional əməkdaşlıq imkanları əsas müzakirə mövzuları olub.

Konfransın Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirildiyini yazan müəllif 30 il işğal altında qalmış şəhər və kəndlərdə şahidi olduğu barbarlıq aktlarından danışıb, minatəmizləmə işləri ilə tanış olduqlarını bildirib. Həmçinin ermənilərin bu ərazilərdə bir milyona yaxın mina basdırdığını diqqətə çatdırıb.

Məqalədə konfransda ”Şuşa-dirçəliş yolunda”, ”Əməkdaşlıq, imkanlar və çağırışlar” adlı mövzular ətrafında aparılan müzakirələrdən də bəhs olunub. Eyni zamanda, Prezident İlham Əliyevin konfrans iştirakçıları ilə görüşündəki çıxışından, eləcə də Azərbaycanın gələcəyi, onun qonşuları və dünyanın digər ölkələri ilə münasibətlərə dair iştirakçıların suallarını cavablandırmasından danışılıb. Vurğulanıb ki, Prezident İlham Əliyev 30 illik işğal zamanı Azərbaycan xalqının çəkdiyi iztirablar, Qarabağın şəhər və kəndlərinin kütləvi şəkildə dağıdılması, Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma işləri, davamlı sülhün bərqərar olması üçün Ermənistana təqdim edilmiş 5 prinsip barədə ətraflı məlumat verib.

# “Heydər Əliyev siyasəti: Modern dövlət quruculuğundan böyük zəfərə doğru”

## *YAP Mərkəzi Aparatının təşkilatçılığı ilə bu mövzuda konfrans keçirilib*

**Mayın 6-da Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş ”Heydər Əliyev siyasəti: Modern dövlət quruculuğundan böyük zəfərə doğru” mövzusunda konfrans keçirilib.**

Əvvəlcə konfransda ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş film nümayiş olunub.

Konfransda giriş nitqi ilə çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bu gün dünyanın siyasi mənzərəsi mürəkkəbdir. Ziddiyyətlər, qarşıdurmalar, xaos və anarxiya halları müxtəlif regionları, ölkələri öz ağuşuna alıb. Belə bir şəraitdə yalnız milli maraqlara uyğun səmərəli və müstəqil siyasət həyata keçirən dövlətlər sabitliyi, təhlükəsizliyi və dayanıqlı inkişafı təmin edə bilirlər. Azərbaycan təcrübəsi də bu baxımdan əlamətdar və nümunəvidir. Şübhəsiz ki, Azərbaycan bugünkü inkişaf mərhələsinə asanlıqla çatmayıb. Çoxəsrlik dövlətçilik tariximizin iki parlaq şəxsiyyəti - ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin məqsədyönlü siyasəti sayəsində Azərbaycan güclü dövlətə, söz və nüfuz sahibinə çevrilib.

Onun sözlərinə görə, inkaredilməz həqiqətdir ki, müasir Azərbaycan reallığı, eləcə də Azərbaycan tarixinin müstəqillik zirvəsi Heydər Əliyevin adı, siyasəti və fəaliyyəti ilə bağlıdır: ”O, sözün əsl mənasında, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan xalqının xilaskarı, dünya azərbaycanlılarının Ümummilli Lideridir. Heydər Əliyevin zəngin siyasi irsi və əbədiyaşar ideyaları isə xalqımızın tükənməz mənəvi sərvəti, milli tərəqqi yoludur. Heydər Əliyev siyasəti Azərbaycanı qurtuluşdan tərəqqiyə, tərəqqidən zəfərə aparan yol kimi möhtəşəm nailiyyətlərimizin əsasını təşkil edir. Onun ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda inamla və qətiyyətlə addımlayan müasir Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır, ölkəmizin müasir mənzərəsi, dünyanın siyasi sistemində yeri və rolu xalqımızda böyük ruh yüksəkliyi, gələcəyə böyük inam yaradır. Ulu Öndər fəaliyyətinin bütün mərhələlərində Azərbaycanın inkişafına, milli həmrəyliyin təmin olunmasına, dövlət maraqlarının qorunmasına və dövlətçilik ənənələrinin yaşadılmasına xidmət edən misilsiz işlər görmüş, böyük tarixi nailiyyətlərə imza atmışdır. Ona görə də çoxəsrlik tariximizin Heydər Əliyev dövrü Azərbaycanın dövlətçilik salnaməsidir”.






YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycanda müasir və müstəqil dövlət quruculuğu, heç şübhəsiz ki, ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır: ”Ulu Öndər əsl müstəqillik qazanmaq, dövlətçilik ənənələrini bərpa etmək və milli inkişafa nail olaraq sabaha inamla addımlamaq missiyasını öz üzərinə götürməklə Zəfərə aparan yolun əsasını qoymuşdur. Müstəqillik dövrünün sabitlik və inkişaf mərhələsi kimi səciyyələndirilən 1993-2003-cü illərdə Ulu Öndərin rəhbərliyi ilə görülən işlər yeni Azərbaycanın parlaq gələcəyini inşa etmişdir. Heydər Əliyevin müstəqillik dönəmində ölkəmizə rəhbərlik etdiyi dövr, eyni zamanda, Azərbaycanı böyük Zəfərə aparan yolun başlanğıcı olmuşdur. Müdrik dövlət xadimi o zaman işğal altında olan torpaqlarımızın azad olunması istiqamətində sistemli və məqsədyönlü fəaliyyətin əsasını qoymuş, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda ardıcıl işlərə başlanılmışdır. Böyük siyasətin sirlərinə dərindən bələd olan Heydər Əliyev bilirdi ki, torpaqların işğaldan azad olunması - ölkəmizin ərazi bütövlüyünün, tarixi ədalətin bərpa edilməsi üçün güclü dövlət konsepsiyasını reallaşdırmaq lazımdır. Bunun üçün isə strateji hədəfləri dəqiq müəyyənləşdirmək, xüsusi olaraq bir neçə istiqamətdə milli məqsədləri gerçəkləşdirmək gərəkdir. Bunlardan biri və birincisi ilk növbədə ölkə daxilində sabitlik və təhlükəsizlik mühitinin təmin olunması idi. Ulu Öndər həm daxili siyasətdə mühüm tədbirlər həyata keçirməklə, həm də Azərbaycanın dövlətçilik mənafeyini beynəlxalq miqyasda strateji maraqlarla dəqiq uzlaşdırmaqla buna nail oldu. Paralel olaraq mütərəqqi iqtisadi inkişaf strategiyasının hazırlanması və uğurla tətbiq olunması da Azərbaycanın milli gücünün artırılmasında və hədəfə doğru inamla irəliləməsində mühüm rol oynadı. Bu kontekstdə ”Əsrin müqaviləsi”nin imzalanması, beynəlxalq əməkdaşlıq platformasının yaradılması, xarici tərəfdaşlarla iqtisadi-ticari münasibətlərin təməlinin atılması və digər addımlar da xüsusi vurğulanmalıdır.

*Ardı Səh. 4*



# “Heydər Əliyev siyasəti:
# Modern dövlət quruculuğundan böyük zəfərə doğru”

## *YAP Mərkəzi Aparatının təşkilatçılığı ilə bu mövzuda konfrans keçirilib*

Əvvəli Səh. 3

Böyük Zəfərə gedən yolda xüsusi əhəmiyyət kəsb edən işlərdən biri də uğurlu ordu quruculuğunun həyata keçirilməsi idi. Digər tərəfdən, Ulu Öndərin beynəlxalq səviyyədə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və Ermənistanın işğalçılıq siyasətini pisləyən qətnamələrin və bəyanatların qəbul edilməsinə nail olması da ölkəmizin beynəlxalq mövqeyinin möhkəmlənməsinə, diplomatik müstəvidə üstünlük qazanmasına xidmət göstərdi”, - deyən Tahir Budaqov vurğulayıb ki, Heydər Əliyevin xalqımız və dövlətimiz, dövlətçiliyimiz qarşısında ən mühüm - tarixi xidmətlərindən biri siyasi varisliyin təmin olunmasıdır. Ulu Öndər özündən sonra Azərbaycan dövlətini müstəqil, milli maraqlara və milli-mənəvi dəyərlərə, xalqın ali iradəsinə əsaslanan siyasət həyata keçirməklə zirvələrə daşıyacaq Lider yetişdirməklə dövlətçilik tariximizdə ən böyük xidmətlərindən birini göstərmişdir.




”Heydər Əliyevin inamı, xalqın böyük etimadı özünü tam doğrultmuşdur. Onun layiqli davamçısı olan cənab İlham Əliyev xalqın iradəsi əsasında Prezident seçildikdən sonra ölkəmizin inkişafında yeni bir mərhələnin əsası qoyulmuşdur. Azərbaycan öz iqtisadi, siyasi gücü, hərbi qüdrəti ilə, xalqımızın mübarizə ruhu və əzmi ilə yeni zirvələri fəth etməyə doğru inamla irəliləməyə başlamışdır. Ən əsası, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan böyük Qələbə xalqımızın qürur və iftixar mənbəyi, dövlətimizin isə qüdrətinin ifadəsidir. Bu, həm də Heydər Əliyev ideyalarının təntənəsi, dövlətçilik tariximizin zirvə hadisəsidir. Ulu Öndərin görmək istədiyi bugünkü güclü, qüdrətli, nüfuzlu və qalib Azərbaycan Heydər Əliyev yolu ilə əmin addımlarla, inamla, əzmlə və qətiyyətlə sürətli irəliləyişini davam etdirir. Dünya müasir müstəqil dövlətimizin banisinin ideyalarının reallığa çevrilməsi nəticəsində möhtəşəm Azərbaycana şahidlik edir! Heydər Əliyev ideyaları, Prezident İlham Əliyevin siyasəti Azərbaycan üçün yeni parlaq perspektivlər yaradır. Əminliklə söyləmək olar ki, öz ərazi bütövlüyünü təmin etmiş, bölgənin lider dövlətinə - regional güc mərkəzinə çevrilmiş Azərbaycan yeni zirvələr fəth edərək tarix yazacaq, adını tarixə əbədi yazdıracaq!”,-deyə YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb.









Konfransda ”Xalq-Heydər, Heydər-Xalq - zamanın sınağında formalaşmış vəhdət” mövzusunda çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Məmmədov bildirib ki, biz Heydər Əliyev haqqında danışanda onu Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, azərbaycançılıq ideologiyasının banisi, milli özünüdərk şüurunun formalaşdırıcısı, Ümummilli Lider, Ulu Öndər kimi çox qiymətli və məzmunlu sözlərlə yad edirik. Ancaq bütün bunları deyərkən, eyni zamanda, hiss edirik ki, nəyisə yenə demək lazımdır, lakin onu ifadə etmək üçün söz tapa bilmirik. Düşünürəm ki, Heydər Əliyevin böyüklüyü elə bundadır. Yəni, Azərbaycan dilinin leksik fondunda o böyüklüyü ifadə etmək üçün söz yoxdur. Bu isə Heydər-Xalq, Xalq-Heydər vəhdətinin elə özüdür. Heydər Əliyev epoxal siyasi xadim idi. Onun Azərbaycanda hakimiyyəti ayrıca bir era təşkil edir. Bu era müxtəlif ideoloji, siyasi və sosial qatlardan ibarətdir. Ancaq nəticə və məzmun etibarilə bütövdür. Onun Azərbaycanda hakimiyyəti bir-birinə tamamilə zidd olan siyasi-ideoloji sistemlərdə mövcud olsa da, fəaliyyətinin cazibə mərkəzi daim Azərbaycan dövlətçiliyi olub. Ancaq şübhəsiz ki, Heydər Əliyevin fəaliyyətini yalnız milli müstəvidə qiymətləndirmək doğru olmazdı. Onun adı və fəaliyyəti Azərbaycanın siyasi-inzibati və etnosiyasi coğrafiyası ilə məhdudlaşmır”.

H.Məmmədov qeyd edib ki, Heydər Əliyev istər sovet xalqları, istərsə də bütövlükdə türk xalqlarının tarixində mühüm rol oynamış bir siyasi xadimdir. Onun sözlərinə görə, Heydər Əliyevin tarixin müxtəlif mərhələlərində aldığı kritik qərarlar bu gün müasir Türk dünyası xalqlarının və daha geniş mənada Orta Asiyadan Avropaya qədər uzanan böyük siyasi coğrafiyada yerləşən çoxsaylı xalqların müasir sosial-iqtisadi, mədəni-humanitar inteqrasiyası və birliyi kontekstində mühüm əhəmiyyət kəsb edir. ”Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Heydər Əliyevin yaratdığı milli dövlətçilik ənənələri üzərində təntənə edən müstəqil Azərbaycan müstəqil dövlətçilik tariximizin ən güclü Azərbaycanıdır”, - deyə YAP İdarə Heyətinin üzvü vurğulayıb.

Konfransda Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev ”Heydər Əliyev - elm və təhsilin hamisi” mövzusunda çıxış edib. E.Babayevin sözlərinə görə, Ümummilli Liderimizin heç vaxt bitməyəcək, əsrlərlə yaşayacaq mənəvi ömrünün 99-cu zirvəsindən ötən illərə baxdıqca bir daha şahid oluruq ki, XX əsrin 70-ci illərindən başlayaraq xalqımızın və dövlətimizin əldə etdiyi bütün uğurların təməlində məhz Heydər Əliyev siyasəti, bu fenomenal şəxsiyyətin işıqlı əməlləri, parlaq siması dayanır.







*Ardı Səh. 5*

Əvvəli Səh. 4

# “Heydər Əliyev siyasəti: Modern dövlət quruculuğundan böyük zəfərə doğru”

## *YAP Mərkəzi Aparatının təşkilatçılığı ilə bu mövzuda konfrans keçirilib*

Rektor qeyd edib ki, Ümummilli Liderin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də konkret və məqsədyönlü addımların atılması, təhsil siyasətinin etibarlı əsasının formalaşması təmin edilib: ”Ulu Öndər hələ respublikaya rəhbərliyinin birinci dövründə elmin, təhsilin inkişafına xüsusi diqqət yetirir, gələcəkdə müstəqil Azərbaycana bacarıqlı, peşəkar kadrların lazım olacağını prioritet hesab edirdi. Məhz dahi Liderin böyük xidmətləri sayəsində respublikada ali təhsil müəssisələrinin sayı və onların qəbul planları artırılıb, tələbə qəbulunda şəffaflıq, ədalətlilik təmin olunub. Ulu Öndərin şəxsi nüfuzu və əlaqələri hesabına yüzlərlə azərbaycanlı gənc müvafiq ixtisaslara yiyələnmək üçün keçmiş SSRİ-nin qabaqcıl elm və təhsil mərkəzlərinə göndərilib. ”Təhsil millətin gələcəyidir”, - deyən Ulu Öndər Azərbaycana rəhbərliyinin





ikinci dövründə - 1993-2003-cü illərdə də bu sahənin inkişafına xüsusi qayğı ilə yanaşıb. Bu illərdə Azərbaycanın təhsil sistemi təkmilləşdirilib və dünya təhsil sisteminə inteqrasiyası üçün geniş imkanlar yaradılıb. Bu sahədə təkmil qanunverici bazanın formalaşdırılması, təhsil konsepsiyasının hüquqi əsaslarının yaradılması məqsədilə ”Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı” hazırlanıb və geniş müzakirələrdən sonra 1999-cu ilin iyununda imza-





lanaraq qüvvəyə minib. Həmin proqram ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, milli təhsil ənənələrinə sadiq qalmasını da təmin edib”.

Rektor ulu öndər Heydər Əliyevin Bakı Dövlət Universitetinə qayğısından da ətraflı bəhs edib.

E.Babayev vurğulayıb: ”Bu gün Heydər Əliyev siyasətinin bəhrəsidir ki, Azərbaycanda təhsil sahəsi ilə yanaşı, iqtisadiyyat, elm, mədəniyyət və digər sahələr də çox sürətlə inkişaf edir. Müstəqil Azərbaycan dövlətinin banisinin axıra çatdırmaq istədiyi ən taleyüklü məsələ Qarabağ probleminin həlli, işğal altındakı torpaqlarımızın azad edilməsi idi. Müqəddəs ata vəsiyyətini şərəflə yerinə yetirən Prezidentimiz, yenilməz sərkərdəmiz İlham Əliyev müzəffər ordusu, məğrur xalqı ilə birlikdə 44 günlük Vətən müharibəsində qazandığımız parlaq Qələbə sayəsində xalqımızın, bütün dünya azərbaycanlılarının başını daha da uca etdi”.

Konfransda YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə ”Yeni Azərbaycan Partiyası - Ulu Öndərin siyasi xəttinə sadiqliyin əyani ifadəsi” mövzusunda çıxış edib. O bildirib ki, müstəqil dövlətimizin müasir tarixi fenomen şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. XX əsrin sonunun Azərbaycan xalqının həyatında taleyüklü bir dövr kimi xarakterizə olunduğunu deyən V.Rəhimzadənin sözlərinə görə, həmin dövrdə baş verən hadisələr ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını şərtləndirib. Həmin dövrün xarakteristikası xalqın böyük əksəriyyətinin istəyini ifadə edən 91 ziyalının Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı ulu öndər Heydər Əliyevə ”Azərbaycan Sizin sözünüzü gözləyir” müraciətində öz əksini tapırdı. Həmin müraciətdə qeyd olunurdu ki, ölkəni yalnız zəngin dövlətçilik təcrübəsinə malik olan, dövlətini, xalqını sevən, onun gələcəyini düşünən Heydər Əliyev kimi Lider xilas edə bilər. Hər zaman xalqının yanında olan Ümummilli Lider bu müraciətə biganə yanaşa bilməzdi. Müstəqilliyimizi tarixi nailiyyətimiz kimi dəyərləndirən ulu öndər Heydər Əliyev ziyalıların müraciətinə ”Yeni müstəqil Azərbaycan uğrunda” cavabında ölkəmizi düşdüyü çətinliklərdən xilas etməyin yollarını göstərdi və 1992-ci ilin noyabr ayında Naxçıvanda Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası təsis edildi. Yeni Azərbaycan Par-



tiyası yarandığı gündən xalqın partiyasına çevrildi. Yaradılmasından cəmi 7 ay sonra iqtidar partiyasına çevrilən YAP cəmiyyətin avanqard qüvvəsi kimi bütün proseslərin mərkəzində oldu. 1993-cü ildə partiyamızın qurucusu, ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi əsasında hakimiyyətə qayıdışı ilə Azərbaycanın, eyni zamanda, Yeni Azərbaycan Partiyasının həyatında yeni mərhələ başladı. Ümummilli Liderin adı tarixə Azərbaycanın müstəqilliyinin xilaskarı kimi yazıldı”.

V.Rəhimzadə vurğulayıb ki, müstəqil Azərbaycan 2003-cü ildən Heydər Əliyev məktəbinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla inkişaf edir, islahatların təkmilləşməsi fonunda yenilikçi ölkə kimi nüfuz qazanır. 30 ilə yaxın dövr ərzində işğal altında qalan torpaqlarımız 44 günlük Vətən müharibəsində tarixi Zəfərimizlə azadlığa qovuşdu. Xalqımız hər zaman olduğu kimi, bu gün də öz Liderinə arxalanır, onun ətrafında dəmir yumruq kimi birləşib.

Konfransda ”Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi” mövzusunda çıxış edən YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, insanların hər biri ömrünü bir zaman kəsiyində yaşayır, zamanın diktəsi ilə hərəkət edir. Lakin tarixdə elə şəxsiyyətlər var ki, onlar vaxtdan ucada durur, zamana sığmır, zamanın gərdişini dəyişirlər. Bu gün nuruna toplaşdığımız şəxsiyyət ümummilli lider Heydər Əliyev məhz belə şəxsiyyətdir. S.Qurbanovun fikrincə, Heydər Əliyev elə bir şəxsiyyətdir ki, onun haqqında hər zaman yeni söz söyləmək mümkündür. Çünki Heydər Əliyev tükənməz xəzinədir. Azərbaycan xalqı öz kimliyini məhz Heydər Əliyev ideologiyası ilə təsdiq etdi. Nədir Heydər Əliyev ideologiyası? Təbii ki ilk ağla gələn azərbaycançılıq ideologiyasıdır. Heydər Əliyevin yaratdığı azərbaycançılıq ideologiyası özünəməxsusluğu ilə fərqlənir. Azərbaycan bu gün vahid ideologiyası olan dövlətdir. Heydər Əliyevə qədər Azərbaycanda müxtəlif dövrlərdə mövcud olmuş ideoloji cərəyanlar bəzi hallarda özünü hansısa çalarlarını qabartması nöqteyi-nəzərdən strateji baxımdan o qədər də doğrultmadı. Lakin Heydər Əliyev milli ideologiyada qızıl ortanı tapa bildi”.

S.Qurbanov qeyd edib ki, Heydər Əliyev dühası və onun layiqli davamçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətləri nəticəsində biz dünyada qalib xalq kimi qəbul edilmişik. Azərbaycanın aydın gələcəyi məhz Heydər Əliyev ideallarına sadiqlikdən keçir.

ANALİTİK + AKTUAL

# Yerində vurğulanan söz - Prezident hansı məqama eyham vurdu?

## İlham Əliyev: "Təəssüf ki, bu təyyarələr həmin ölkələrin hava məkanından istifadə edərək Ermənistana daxil olurdu"



Aprelin 29-da ADA Universitetində "Cənubi Qafqaz: İnkişaf və Əməkdaşlıq" mövzusunda keçirilən beynəlxalq konfransda çıxış edən Prezident İlham Əliyev regional və beynəlxalq siyasi faktorlara toxunmaqla yanaşı, həm də bir sıra digər maraqlı nüansları önə sürməklə onların dəqiq təhlillərini apardı. Daha dəqiq desək, müxtəlif politoloqlar, siyasi analitiklər tərəfindən verilən sualları geniş və müfəssəl şəkildə şərh edən dövlət başçımız 44 günlük müharibə zamanı regionumuza daxil olan bir sıra qonşu ölkələrin münasibətləri haqqında da xüsusi qeydlərini apardı, xatırlatmalar etdi. Əsasən, yerdən səslənən "Rusiyanın Ermənistanın davranışına təsir edə biləcəyini düşünürsünüzmü?" replika-suala cavab verən ölkə başçımız əslində Azərbaycanın gözləntilərinin nədən ibarət olduğunu vurğuladı və bir neçə təəssüfedici məqamları xatırlatdı.

### İlham Əliyevin qətiyyətli xatırlatması həm də həmin ölkələrə göndərilən mesaj kimi də qiymətləndirilə bilər

Misal üçün, "Ermənistanda gözləntilər var idi ki, Rusiya Qarabağda müharibəyə müdaxilə edəcək. Bu, baş vermədi, çünki biz öz ərazimizdə döyüşürdük. Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə bağlı öhdəliklərə dair manipulyasiya cəhdləri edirdi. Lakin KTMT-nin mandatına üzv dövlətləri öz ərazilərində müdafiə etmək daxildir. Biz isə öz ərazimizdə döyüşürdük. Beləliklə, bu, baş vermədi", deyə qeyd edən Prezident İlham Əliyev Rusiyanın Qarabağ münaqişəsində birbaşa iştirak etmədiyini bildirsə də, dolayı yolla Ermənistana davamlı silah təchizatı etdiyini də dedi. Yeni Rusiya müharibənin davam etdiyi 44 gün ərzində bir gün də olsun Ermənistanı silahsız buraxmadı və ən təəssüfedicisi isə bu idi ki, rəsmi Bakı silahları Ermənistana daşıyan Rusiyaya məxsus hərbi məqsədli yük təyyarələrinin üzünə hava məkanlarını bağlaması ilə bağlı qonşu ölkələrə müraciət etsə də həmin müraciətlər cavabsız qaldı. Məhz bu baxımdan, cənab İlham Əliyevin qətiyyətli xatırlatması həm də həmin ölkələrə göndərilən mesaj kimi də qiymətləndirilə bilər. SİTAT: "Bununla yanaşı, bu, hər kəsə məlumdur və biz 44 günlük müharibə zamanı bunu ictimai şəkildə dəfələrlə bəyan etdik ki, müntəzəm qaydada, gündə bir neçə dəfə Rusiyadan təyyarələr vasitəsilə Ermənistana silah daşınırdı. Biz bütün marşrutları izləyirdik - Rostovdan və Mozdokdan silah daşınırdı".

### Gürcüstan istisna olmaqla İran, Türkmənistan və Qazaxıstan...

Bu arada, Azərbaycanın müraciətinə yalnız qonşu Gürcüstanın müsbət cavab verməsi də yüksək şəkildə qiymətləndirilməlidir. Təbii ki, burada da bir sıra digər məqamlar ehtiva olunmaqdadır. Məsələn, Gürcüstanın da ərazi bütövlüyü işğala məruz qalıb, bu ölkənin torpaqlarının 20%-i Abxaziya və Cənubi Osetiya separatçı respublikalarına parçalanıb. Və rəsmi Tiflis Bakının müraciətinin əsasında Qarabağ torpaqlarının işğaldan azad edilməsi ilə əlaqəli olduğunu yaxşı bildiyi üçün qonşuluq, eləcə də beynəlxalq hüquq prinsiplərinə sədaqətliyini nümayiş etdirdi. Ancaq təəssüf ki, biz həmin münasibəti müsəlman ölkələri olan İrandan, habelə Türkəminstandan və Qazaxıstandan müşahidə etmədik.

Ona görə də Prezident İlham Əliyev həmin amil üzərində məxsusi olaraq dayandı və haqlı iradlarını irəli sürdü. SİTAT: "Biz gürcüstanlı dostlarımızdan hava məkanını bağlamağı xahiş etdik və onlar bunu etdilər. Bundan əlavə, biz gürcüstanlı dostlarımızdan xahiş etdik ki, quru yolu vasitəsilə Rusiyadan Gürcüstan ərazisindən silahların daşınmasının qarşısını alsınlar və onlar belə də etdilər. Biz buna görə minnətdarıq. Biz bütün Xəzəryanı ölkələrə məktublar göndərdik ki, Rusiyadan Ermənistana silah daşıyan yük təyyarələrinə uçuş icazəsi verilməsin. Belə məktublar Qazaxıstan, Türkmənistan və İrana göndərildi. Təəssüf ki, bu təyyarələr həmin ölkələrin hava məkanından istifadə edərək Ermənistana daxil olurdu".

### İlham Əliyev digər dövlət başçılarından fərqli olaraq hər şeyi olduğu kimi vurğulayır və belə bir qətiyyətlilik siyasi mexanizm faktorlarını icra etmək heç də hər dövlət idarəçisinə müyəssər olmur!

Prezident İlham Əliyevin qətiyyəti və açıq bəyanatlar səsləndirməsi həm də bu anlamı verir ki, ölkə rəhbərimiz digər ölkələrin dövlət başçılarından fərqli olaraq hər şeyi olduğu kimi vurğulayır və əlbəttə ki, belə bir uğurlu, həmçinin qətiyyətlilik siyasi mexanizm faktorlarını icra etmək heç də hər dövlət idarəçisinə müyəssər olmur. O cümlədən, həqiqəti demək həm də bəzi ölkələrin zamanında qəbul etdikləri yanlış qərarları analiz etməyə imkanlar yaradır.

Daha dəqiq desək, hətta Rusiyanın Ermənistana daşıdığı silah-sursatlar üçün hava məkanlarını açıq qoymalarına və Azərbaycanın müraciətlərinə etinasız yanaşmalarına rəğmən Ermənistan Azərbaycanın qarşısında diz çökdü, kapitulyasiyası ilə barışmalı oldu. Ona görə də Prezident İlham Əliyev bu xüsusda vurğulayıb - SİTAT: "Yəni, vəziyyət belə idi və biz 44 günlük müharibənin bu hissəsini gizlətməməliyik. Lakin Ermənistanın gözləntiləri daha yüksək idi. Onlar hesab edirdilər ki, Rusiya ordusu bura gələrək separatizmi müdafiə edəcək. Bu isə baş vermədi. Orada müəyyən məyusluq var idi, ancaq işğal illəri ərzində bizim Ermənistan hökuməti və diasporunun necə fəaliyyət göstərməsi ilə bağlı məlumatımız var idi. Onlar hesab edirdilər ki, bütün dünyanın onlara borcu var və kimsə gəlib onları müdafiə edəcək, onların əvəzindən döyüşəcək, gəlib onlara pul verəcək, digər yardım edəcək. Bunlar isə oturacaqlar və bu şübhəli "faciədən" sui-istifadə edəcəklər. Hər bir xalqın özünün tarixində faciəvi məqamları olub. Onların problemi isə ondan ibarətdir ki, onların ideologiyaları gələcəyə baxmaq əvəzinə şübhəli və qondarma tarixi faktlara əsaslanır".

Dövlətimizin başçısı Azərbaycanın nəinki qonşu ölkələrlə, bütövlükdə bütün dünya ölkələri ilə münasibətlərini yaxşı istiqamətdə qurmaq tərəfdarı olduğunu qeyd etdi və bu gerçəklik rəsmi Bakının yalnız sülh mesajları verməsinə dəlalət edir. Əbəs deyil ki, İlham Əliyev "Qonşuluqda olan ölkələr arasında münasibətlərin hər zaman yaxşı olmasının tərəfdarıyıq və bu, bizim sülh gündəliyimizin tərkib hissəsidir", deyə konfransdakı çıxışında bəyan edib.

***Rövşən RƏSULOV***

## Tahir Budaqov: "Ulu öndər Heydər Əliyev Azərbaycan dövləti və xalqı üçün misilsiz xidmətlər göstərib"



"Hər il ənənəvi olaraq Azərbaycan xalqının ümummilli lideri, müasir və müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin anadan olmasının ildönümü ilə bağlı Yeni Azərbaycan Partiyası tərəfindən silsilə tədbirlər keçirilir. Bu gün isə Ulu Öndərimizin anadan olmasının 99-cu ildönümü münasibətilə "Heydər Əliyev siyasəti: Modern dövlət quruculuğundan böyük zəfərə doğru" mövzusunda konfrans təşkil olunub. Yeni Azərbaycan Partiyasının rəhbərliyinin və partiyanın strukturuna daxil olan qurumların təmsilçilərinin, dövlət nümayəndələrinin iştirak etdiyi konfransda ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətləri ilə bağlı məruzələr dinlənilib". Bu fikirləri YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında deyib.

Heydər Əliyevin dünya şöhrətli siyasətçi və dahi şəxsiyyət olduğunu qeyd edən Tahir Budaqovun sözlərinə görə, Ümummilli Liderimiz istər sovet dönəmində respublikamıza rəhbərlik etdiyi vaxt, istərsə də müstəqillik dövründə Azərbaycan dövləti üçün o zaman bəlkə də çoxlarının dərk edə bilmədiyi, elə bir işlər gördü ki, onların xalqımız və dövlətimiz üçün bəhrəsini biz on illərdən sonra şahidi olmuşuq. YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycanın müstəqil, suveren dövlət kimi bərqərar olub inkişaf etməsində, tərəqqisində və bu gün dünya birliyində layiqli yer tutmasında Heydər Əliyev ideyalarının, onun siyasətinin əvəzsiz rolu vardır. "Bu gün də həmin siyasət uğurla davam edir. Prezident İlham Əliyev Heydər Əliyev siyasətinin davamçısı olaraq ölkəmizi daha uca, yeni zirvələrə yüksəldib. Ulu Öndərimizin misilsiz xidmətləri, zəngin irsi bundan sonra da öyrəniləcək", - deyən YAP Mərkəzi Aparatının rəhbəri dahi şəxsiyyətin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tədbirlərin bütün respublikanı əhatə etdiyini diqqətə çatdırıb.

"Mayın 10-da isə Yeni Azərbaycan Partiyasının nümayəndələri olaraq Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edəcək, onun əziz xatirəsini dərin hörmət və ehtiramla yad edəcəyik", - deyə Tahir Budaqov vurğulayıb.

## Rus ekspert: "Bakı-Moskva-Ankara formatı regionda vəziyyəti sabitləşdirməyə yönəlib"

Bakıda keçirilən "Cənubi Qafqaz: inkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda Azərbaycan prezidenti İlham Əliyev hazırkı regional konfiqurasiyadan razı qaldığını bildirib və regionda Bakı-Moskva-Ankara formatı istiqamətində fəal dialoqun aparıldığını qeyd edib. Bəs bu formatın gələcəyi haqda ekspertlər nə düşünür? Rusiya Sülhməramlı Təşəbbüslər və Konfliktologiya İnstitutunun direktoru Denis Denisov "Caliber.Az-a qısa müsahibəsində bildirib ki, belə formatlar regionda vəziyyəti sabitləşdirməyə yönəlib: "Əslində, bu üçbucağın içində başqası ola bilməz. Buna görə də, Rusiya Federasiyası da daxil olmaqla, müsbət qarşılanır. Hətta hesab edirəm ki, bütün iştirakçı tərəflərin siyasi iradəsi ilə bu 3 dövlətin liderlərini narahat edən problemlərin konkret, ciddi həllini gözləmək olar.



Bu arada, bunun bir qədər fərqli müstəvisi var- belə üçtərəfli təmaslar fonunda regionun sabitliyi üçün digər ölkələri də analoji layihələrə cəlb etmək lazımdır. Mən həm Ermənistanı, həm Gürcüstanı, həm də İranı nəzərdə tuturam. Belə olan halda sabitlik problemi, böhranın həlli problemi sadəcə olaraq yeni səviyyəyə qalxacaq və indikindən qat-qat asan həll olunacaq".

Rusiya-Ukrayna müharibəsi hansısa formada Ermənistan-Azərbaycan nizamlanmasına təsir edirmi sualına cavabında isə ekspert bildirib ki, belə təsir əlbəttə ki var: "İndiki şəraitdə təbii ki, Ukraynada keçirilən xüsusi hərbi əməliyyatın təsiri və ümumiyyətlə, regional qeyri-sabitlik Ermənistan-Azərbaycan məsələsi üzrə danışıqlar yoluna da təsir edəcək. Bununla belə, yadda saxlamaq lazımdır ki, dialoqun modelləşdirilməsi və idarə olunması kimi çərçivəyə salınmağa çalışan bu trek çərçivəsində bütün Avropa təşəbbüslərinə son dərəcə diqqətlə və diqqətlə yanaşmaq lazımdır, çünki biz yaxşı bilirik ki, indiki şəraitdə Aİ nümayəndələrinin bu cür dialoq və təşəbbüslərdən öz geosiyasi məqsədləri üçün istifadə olunacağına dair belə bir ssenariyə baxmaq tamamilə mümkündür və bu, Azərbaycan və Ermənistan, əslində, danışıqlar iştirakçılarının özləri üçün həmişə faydalı olmaya bilər. Amma mənə elə gəlir ki, ölkələrin rəhbərləri bunu yaxşı bilir, ona görə də bu problem minimuma endiriləcək".

***Tərcümə - Elçin Bayramlı***

# Heydər Əliyev irsi:

## Müstəqil dövlətçilik və müasirlik

**İlham Əliyev: "Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq"**



Azərbaycan xalqının ümummilli lideri, dünya səviyyəli siyasi xadim Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan nadir, bənzərsiz şəxsiyyət - HEYDƏR ƏLİYEV. Azərbaycan Prezidenti İlham ƏLİYEV çıxışlarında dönə-dönə vurğulayıb ki, xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır: "Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır."Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya ölkələri sırasında layiqli yerə çıxarıb".

### MÜSTƏQİL AZƏRBAYCANIN MEMARI

Bəli, tarix dəfələrlə sübut edib ki, bir xalqın mövcudiyyəti onun həmrəyliyindən və bu həmrəyliyi təmin edən liderlərin dövrün məsuliyyətini öz üzərlərinə götürərək tarixi yenidən yazmaq bacarığından irəli gəlir. Bu mənada Azərbaycan xalqı xoşbəxt xalqlardandır ki, Heydər Əliyev kimi dahi şəxsiyyət Azərbaycan tarixin ən çətin sınaqlarından çıxarmaqla onun mövcudluğunu əbədi etmişdir. Təsadüfi deyil ki, fərqli ictimai-siyasi dövrlərdə belə, mənsub olduğu xalqın xoşbəxtliyi üçün yorulmadan çalışan ulu öndər Heydər Əliyevin adı dünyanın axarını dəyişən böyük tarixi şəxsiyyətlərlə bir sırada çəkilir. Onun qeyri-adi siyasi bacarığı və böyüklüyü hər kəs tərəfindən etiraf olunur.

Bu gün müstəqil Azərbaycan dövlətinin qazandığı hər bir uğurun təməlində ümummilli liderimizin müəllifi olduğu inkişaf strategiyası dayanır. Bu strategiyanın tarixi ulu öndərimizin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən başlayır. Bu dövrədək zəngin iqtisadi potensialının, təbii sərvətlərinin olmasına baxmayaraq, ölkəmiz ittifaq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerləri tuturdu. Görkəmli dövlət xadiminin respublikamızda rəhbərliyə gəlməsi Azərbaycanda digər sahələrlə yanaşı, iqtisadi inkişafa da yol açmış və ölkəmiz qısa zamanda ittifaq tərkibində o zaman üçün müasir iqtisadiyyata malik respublikaya çevrilmişdi. O dövrdə dahi rəhbər sənaye və kənd təsərrüfatının inkişafına yönəlmiş çox mühüm qərarlar qəbul etmiş, 14 il ərzində 1048 sənaye obyekti tikilmişdir. Bu dövrdə təkcə iqtisadi sahədə deyil, elm, təhsil, səhiyyə və mədəniyyət sahələrinə də böyük qayğı göstərilmişdir. Xüsusilə gələcək müstəqil Azərbaycanın əsas dayağına və qarantına çevriləcək milli ordu quruculuğu siyasəti ön planda olmuşdur.

### TARİXİN YADDAŞINDA ƏBƏDİ İZ QOYAN LİDER

"Tarixi şəxsiyyət o zaman dahi öndər, lider olur ki, o, özünün atdığı imza ilə xalqının adından imza atmış olsun". Bir də tarixin yaddaşında əbədi iz qoymaq hər insana nəsib olmayan böyük xoşbəxtlikdir. Bu yalnız Heydər Əliyev kimi dahi şəxsiyyətlərin qismətinə düşən müstəsna taledir. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş bu dahi şəxsiyyətin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Xalqımızın yaddaşında yaradıcı, qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illəri yaddaşlarda təkcə iqtisadi yüksəliş, təsərrüfatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, həm də elmin, təhsilin, mədəniyyətin misilsiz tərəqqisi illəri kimi qalıb. Məhz həmin dövrdə gələcək müstəqilliyimizin təməl daşları hörülüb, iqtisadi, sosial və mədəni potensialı formalaşıb. 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində köklü islahatlar aparılmış, əsaslı dəyişikliklər baş vermişdir. Bu nəhəng işlər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir.

### ÖMRÜNÜ VƏTƏNİNƏ, XALQINA HƏSR EDƏN ƏBƏDİYAŞAR LİDER

Hər bir ölkənin tarixində onun gələcək taleyinə bilavasitə təsir göstərən əhəmiyyətli dönüş nöqtələri olur. Azərbaycan xalqının müasir tarixində -15 iyun Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı oldu. Ulu öndər Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını özünün dövlətçilik strategiyasının əsas istiqamətləri kimi müəyyənləşdirdi. 1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etsə də, de-fakto bu istəyini reallaşdıra bilməmiş, hakimiyyətdə olan naşı və səriştəsiz qüvvələr ictimai-iqtisadi formasiya dəyişkənliyinin doğurduğu ağır problemlərin öhtəsindən gələ bilməmişlər. Nəticədə ölkədə iqtisadi tənəzzül prosesi dərinləşmiş, xalqın yaşayış səviyyəsi pisləşmiş, qanunçuluğun, hüquq qaydalarının təminatında ciddi problemlər yaranmışdır. Gənc respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə gedirdi. Xüsusən də 1992-ci ilin may ayında silahlı yolla hakimiyyətə gələn AXC-Müsavat iqtidarının siyasi səriştəsizliyi, qətiyyətsizliyi Azərbaycan dövlətçiliyinə ciddi təhlükəyə çevrilən neqativ meyillərin baş qaldırmasına - siyasi mübarizədə qanunsuz silahlı birləşmələrdən istifadəyə, etnik separatizmə, vətəndaş itaətsizliyinə gətirib çıxarmışdı. Ölkədə ictimai-siyasi gərginliyin, özbaşınalığın, xaos və anarxiyanın hökm sürməsi, torpaqlarımızın birbirinin ardınca işğalı xalqda sabaha ümidsizlik yaratmışdı. Belə çətin məqamda dahi şəxsiyyət Heydər Əliyevin xalqın çağırışına səs verməsi, birlik, həmrəylik nümayiş etdirməsi bu ümidsizliyi aradan qaldırdı. Bu elə bir dövr idi ki, ermənilərin "Böyük Ermənistan" yaratmaq niyyətləri, Azərbaycanı Qafqazın siyasi xəritəsindən silmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı. 1992-ci il oktyabrın 24-də Xalq Cəbhəsi yerli qurumlarına məxsus dəstələr Daxili İşlər Nazirliyi binasını, televiziya studiyasını ələ keçirdi. Qiyamçılar xalqa televiziya ilə müraciət edib mövcud hakimiyyət əleyhinə bəyanatlar verirdilər. Gəncədə 1993-cü il iyun qiyamı vəziyyəti daha da ağırlaşdırdı. Ölkənin müstəqilliyinin itirilməsi ilə üzləşdiyi bir şəraitdə AXC hakimiyyəti xalqın israrlı tələbləri ilə, çıxış yolunu yeganə xilaskar kimi Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etməkdə gördü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi. Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əminamanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərinin təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi. Ulu öndərin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur.

### HEYDƏR ƏLİYEV YENİ AZƏRBAYCAN PARTİYASININ QURUCUSUDUR

Hər bir xalqın əsrlər boyu formalaşan dövlətçilik ənənələrinin konkret dövlət modelində gerçəkləşməsi üçün əlverişli siyasi mühit və milli iradə ilə yanaşı, güclü liderin də olması mühüm şərtlərdəndir. Tarixi təcrübə sübuta yetirir ki, həlledici məqamlarda ictimai təşkilatlanmaya, xalqın maraqlarını təmsil edən qüvvələrin vahid qurumda bir araya gəlməsinə nail olmadan qarşıda dayanmış ümummilli problemlərin həlli çətin olur. Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi ən böyük şəxsiyyət olan Ulu öndərimiz Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının yaranması məhz belə bir tarixi zərurətdən irəli gəlirdi. Belə bir zamanda cəmiyyətin sağlam nəzərləri Naxçıvana dikilmişdi. Azərbaycanın çətin anında Ümummilli liderimizin ətrafında sıx birləşməyə, Onun dərin zəkasının köməyi ilə xalqı, yenicə müstəqillik qazanmış dövləti bu fəlakətdən xilas etməyə çalışan insanların çevrəsi cəmiyyətin bütün qruplarını əhatə edirdi. Belə bir zamanda Azərbaycanın bir qrup görkəmli ziyalının müraciətini nəzərə alan Ümummilli liderimiz Heydər Əliyev onlara 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər". 1992-ci ildə partiyanın yaranması, Ümummilli lider Heydər Əliyevin bu partiyaya Sədr seçilməsi respublikanın o zamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da ağırlaşmasından irəli gələn zəruri tarixi hadisə oldu. Həmin dövrü Ulu öndər belə xatırlayırdı: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə böyük təqiblər şəraitində yaranmış bir partiyadır".

Xalqın Ulu öndərimiz Heydər Əliyevə olan inamı tez bir zamanda siyasi səhnədə parlayan Yeni Azərbaycan Partiyasının tarixi məsuliyyəti öz üzərinə götürməsinə imkan verdi. Ümummilli liderimizin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi misilsiz etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı.Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Yeni Azərbaycan Partiyasının inkişafı tarixində də yeni bir mərhələnin əsasını qoydu. Partiya və onun yüz minlərlə üzvü dövlət əhəmiyyətli məsələlərin həlli istiqamətində öz gücünü səfərbər etdi. Yeni Azərbaycan Partiyasının sənədlərində öz əksini tapmış dövlətçilik ideologiyası - Azərbaycan dövlətçiliyinin təməl prinsiplərini özündə əks etdirən yeni azərbaycançılıq ideologiyasının cəmiyyətə təqdimatı və Ulu öndər Heydər Əliyevin müəllifi olduğu bu ideologiyanın uğurla həyata keçirilməsi də YAP-ın öz tarixi inkişaf yolunda Azərbaycan xalqına, dövlətinə bəxş etdiyi ən qiymətli töhfələrdəndir.

### YENİ AZƏRBAYCAN PARTİYASININ İLHAM ƏLİYEV DÖVRÜ

Bu gün Ümummilli Liderimiz Heydər Əliyevin qoyduğu tarixi ənənələr Yeni Azərbaycan Partiyası tərəfindən sədaqətlə həyata keçirilməkdədir. Bu tarixi reallığı müdrik Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri cənabİlham Əliyev qətiyyətli, dönməz siyasəti ilə gerçəkləşdirir. Bu gün Yeni Azərbaycan Partiyasının regionda ən nüfuzlu partiya olmasının başlıca səbəblərindən biri də təşkilatın bölgələrdə göstərdiyi uğurlu, müvəffəqiyyətli və səmərəli nəticələridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün ulu öndər Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".Bu siyasət möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan bütün hədəflərin gerçəkləşməsinə, müstəqil Azərbaycanın gələcək tərəqqisinə, daha qüdrətli dövlətə çevrilməsinə, xalqımızın daha firavan həyata qovuşmasına mütləq əminlik yaradır.

**RƏFİQƏ KAMALQIZI**

# Turistlər ən çox hansı ölkələrə üz tutur?

ARAŞDIRMA



**Azərbaycan turizm cəhətdən inkişaf etmiş ölkələrdəndir. Ölkəmiz, xüsusən də paytaxt Bakı zəngin tarixə malikdir.**

## Azərbaycanda turistlər üçün gəzməli yerlərin siyahısı aşağıdakı kimidir:

*Bakı*
*İçərişəhər*



*Abşeron Milli Parkı*
*Qarasu vulkanı*
*Naftalan*
*Qobustan*
*Xəzər dənizi*
*Şirvan Milli Parkı*
*Nabran*
*Şəki*
*Yanardağ*
*Bakı Dənizkənarı Milli Park*
*Atəşgah*
*Yanar Bulaq*

Azərbaycanın paytaxtı Bakı müasir görkəmi ilə turistləri qarşılayır. Gecələr rəngli olan Alov Qülləleri şəhərə fərqli bir atmosfer qatır.



"İçəri şəhər" və "Qala" kimi də tanınan İçərişəhər YUNESKO-nun Dünya İrs Siyahısına daxildir. Siyahıda olan tikililər arasında köhnə divarlarla əhatə olunmuş Bakı şəhərinin bir hissəsi olan XII əsrə aid Qız Qalası və 13-cü əsrə aid Şirvanşahlar Sarayı da var.

İçərişəhərə təkcə memarlıq tikililəri üçün deyil, həm də ənənəvi Azərbaycan milli geyimlərini görmək üçün gələ bilərsiniz.

783 hektar ərazini əhatə edən Abşeron Milli Parkı təbiəti yaxından görmək üçün mükəmməl yerdir. Burada ceyran, quş, çaqqal, porsuq kimi heyvanları yaxından görmək imkanınız var.

Azərbaycana gələn turistlərin çoxu bilmir ki, dünyada ən çox palçıq vulkanı bizim ölkədə var. Azərbaycanda 350 vulkanik dağ var.

Naftalan xam nefti ilə tanınır və regionda sağlamlıq turizminin aparıcı yerlərindən biridir. Buraya gələnlər yağda çimməklə bəzi xəstəliklərə şəfa tapırlar.

Qobustandakı tapıntılar tarixdən əvvəlki



dövr haqqında çox ətraflı məlumat verir.

Xəzər dənizi 371 min kilometr ərazisi ilə dünyanın ən böyük gölləri sırasındadır.

2003-cü ildə rəsmi mühafizə olunan Şirvan Milli Parkı Xəzər dənizinə yaxın ərazidə yerləşir. Bakıdan cənubda 54 min hektar ərazini əhatə edir. Milli parkda yarımsəhra mənzərələrinə rast gəlmək olar. Ceyran, kirpi, qu quşu, flaminqo kimi heyvanları da yaxından görə bilərsiniz.

Nabran Bakıdan təxminən 3 saatlıq məsafədə Azərbaycanda kurort zonasına çevrilmiş kənddir. Xəzərin sahilində yerləşən kənd yay aylarında bol günəş işığı alır. Nabranda su parkı və hovuz kimi su əsaslı fəaliyyətlərə çox rast gəlinir. Axşamlar fəaliyyət barlar, restoranlar və gecə klubları ilə davam edir.

Bakının qərbində yerləşən Şəki, Qafqazın ən qədim yaşayış məskənlərindən biridir və 2500 il əvvələ aid olduğu bildirilir. Şəki İpək Yolu üzərində yerləşdiyi üçün əvvəllər ipəkləri və toxuculuqları ilə məşhur bir yer olub. Bu ənənənin davamını bu gün də görə bilərsiniz. Bəzəkli tikmələr və əl işləri turistlərin diqqətini cəlb edir.

Şəki şəhərini təkcə toxuculuq deyil, həm də memarlıq strukturları vacib edir.

Bakı klassik sahil ekskursiyaları üçün yaxşı seçimdir. Ailənizlə dəniz kənarında vaxt keçirə biləcəyiniz müxtəlif yerlər var. Axşamlar işıqlı olan məkana getməzdən əvvəl canlı musiqi proqramlarına baxmanızı tövsiyə edirik.

Təbii qazın və neftin yanması Azərbaycanı "odlar yurdu" adlandırmağa gətirib çıxarıb. Zərdüştilər üçün vacib olan od ilahi varlığın olduğunu sübut etdi. Bu səbəbdən bəzi yerlərdə məbədlər



tikilmişdir. Biri Bakıdan kənar Suraxanı qəsəbəsindəki Atəşgahdır. Altıbucaqlı məbədin 17-ci əsrə aid olduğu deyilir.

Yanan suyu görmək istəyirsinizsə, Astara və Lənkəran şəhərləri arasındakı yolun üzərində yerləşən, maraqlı Yanar Bulağa gəlməlisiniz. Su boru vasitəsilə vurulur və içindəki alovlu su təbii metan qazı ilə reaksiyaya girərək alışır. Azərbaycanda yerli sakinlər buradakı suyun müalicəvi xüsusiyyətlərə malik olduğuna inanırlar. Buradan çıxarılan su bir sıra xəstəliklərin müalicəsində içməli su kimi istifadə olunur.

Astara İranla sərhəddə yerləşir. Meşələr və dağlarla əhatə olunmuş Astara Azərbaycanın ən gözəl rayonlarından biridir. Onun öz kafeləri, restoranları və muzeyi var.

Muzey yaxınlıqdakı arxeoloji tapıntılara həsr edilmişdir. Burada 2000 ildən çox yaşı olduğu iddia edilən insan fiqurları, heyvan heykəlləri, medalyonlar və daş işləri kimi qalıqları görə bilərsiniz. Astaranın sərhədləri daxilində köhnə məscidlər, qüllələr, hamamlar, türbələr, dağ kəndləri kimi yerlər var.

Bu sadaladıqlarımız Azərbaycanın turistlər üçün maraqlı ola biləcək yerlərinin sadəcə bir qismidir. Dünyanın bəzi şəhərləri və ya ölkələri də var ki, onlar da çoxlu turist cəlb edir. Bəs, gəlin görək dünyada ən çox turist cəlb edən şəhərlər və ölkələr hansılardır?

## Dünyada ən çox turist cəlb edən ölkələr:

Bu ölkələr arasında reytinqdə birinci yerdə Fransadır. 2012-ci ilin rə-



qəmlərinə görə, 83 milyon turistin ziyarət etdiyi Fransada ən maraqlı yer paytaxt Parisdir.

ABŞ ikinci yerdədir. Nyu York, Maimi və Los Anceles kimi şəhərləri ilə diqqət çəkən ABŞ-a 2012-ci ildə gələn turistlərin sayı 67 milyon nəfər olub.

Dünyanın ən sıx məskunlaşdığı ölkə olan Çin həm də ən çox turist cəlb edən ölkələrdən biridir. Çin xüsusilə iş turizmində çox təsirli bir ölkə olub. 2012-ci ildə Çinə gələn turistlərin sayı 57,7 milyon nəfər olub.

Barselona, Madrid və Valensiya kimi bir çox turizm şəhəri olan İspaniya dünyada ən çox turist cəlb edən ölkələrdən biridir. Hər il ölkəsinə gedən turist sayını artıran İspaniya 2012-ci ildə 57,7 milyon turisti qəbul edib.

Roma, Milan, Venesiya, Florensiya kimi Roma imperiyasının və İntibah dövrünün ən təsirli əsərlərinə ev sahibliyi edən İtaliya dünyanın ən çox turist cəlb edən ölkələrindən birinə çevrilib. 2012-ci ildə İtaliyaya 46,4 milyon insan səfər edib.

İstər dəniz, istər günəş, istərsə də mədəniyyət turizmi ilə hər təbəqədən turistə xitab edən Türkiyə turizmdə ən sürətlə inkişaf edən ölkələrdən biridir. Türkiyə 2012-ci ildə 35,7 milyonla İngiltərəni geridə qoyaraq 6-cı yerdədir.

Dünyanın ən güclü iqtisadiyyatlarından birinə sahib olan Almaniya ölkəsinə gələn turistlərin sayı ilə diqqət çəkir. Ötən illərdə Almaniyaya 30,4 milyon turist gəlib.

Təkcə İngiltərə deyil, həm də Şimali İrlandiya, Uels və Şotlandiyanın daxil olduğu Böyük Britaniya ən çox turist cəlb edən ölkələr siyahısında 8-ci yerdədir. Bu baxımdan İngiltərənin paytaxtı London ən çox turist cəlb edən şəhərdir.

Moskva, Peterburq kimi tarixi şəhərlərin yerləşdiyi Rusiya ən çox turist cəlb edən ölkələrdən biridir. Ən çox diqqət çəkən yerlər kimi Çar imperiyası və Sovet İttifaqına aid əşyalar göstərilir.

Malayziya ekzotik adaları və zəngin mədəni irsi ilə diqqət çəkən ölkələrdən biridir. Bu Uzaq Şərq ölkəsi 25 milyon turistin ziyarət etdiyi bir ölkədir.

SİA dünyada və Azərbaycanda olan turizm zonaları və turistlərlə bağlı olan qanunlarla bağlı araşdırma apararaq iqtisadçı və hüquqşünasların fikirlərini öyrənib.

**Hüquqşünas Fariz Əkbərov:** "Azərbaycan ərazisinin qədim tarixə, zəngin mədəni abidələrə, əlverişli coğrafi mövqeyə,



cəlbedici təbiətə, folklora malik olması və müxtəlif dinlərin qovşağında yerləşməsi, konfrans zalları, mehmanxanalar və xidmət infrastrukturlarının olması, irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsində təcrübə turizmin inkişafı üçün zəmin yaradır.

Azərbaycanda mövcud olan turizm marşrutları yenilənməkdə davam edir. Pandemiya ilə bağlı karantin tədbirlərinin yumşaldılmasından sonra təklif olunan turizm marşrutları üzrə aparılan səmərəli fəaliyyət nəticəsində yerli və xarici turistlərin səfərləri intensiv xarakter almağa başlayıb.

Ölkəmizdə yay və qış turizminin inkişafına göstərilən diqqətin nəticəsidir ki, beynəlxalq səviyyəli turizm bazaları daha çox diqqəti cəlb edir, mehmanxanaların sayı artır, qonaqlara xidmət göstərən kadrların püxtələşməsi istiqamətində önəmli tədbirlər həyata keçirilir.

**Mədəni turizm** - Regionların mədəni irsini, əhalisinin həyat tərzini, tarixini, incəsənətini, memarlığını, dinini və s. əhatə edən bu növdə əsasən kənd yerlərində tarixi məkanlara, mədəniyyət obyektləri olan qoruqlara, abidələrə, muzeylərə, teatrlara, köhnə və yeni memarlıq nümunələrini, eləcə də yerli əhalinin həyat tərzini və milli dəyərlərini əks etdirən festivallara və bayramlara ziyarət etmək mümkündür.

**Sağlamlıq turizmi** - həm ənənələri, həm də müasir imkanları mövcuddur. Ölkədə isti və mineral bulaqların sayı minlərlədir və bunlardan İstisu, Turşsu, Badamlı, Qalaaltı, Şıxburnu, Suraxanı suları ən tanınmış müalicəvi su mənbələrindəndir. Eləcə də Azərbaycanın ən mühüm kurort resurslarından biri Naftalan neftidir. Naftalan neftindən yel, qan, damar, oynaq xəstəliklərinin, həmçinin maddələr mübadiləsinin pozulması, dəri və ginekoloji xəstəliklərin müalicəsi zamanı istifadə olunur.

Bu müddət ərzində turizm nümayiş obyekti kimi istifadə olunması məqsədəuyğun hesab edilən bir sıra tarix-mədəniyyət abidələri bərpa edilmiş və turistlərin istifadəsinə verilmişdir.

Qeyd edim ki, hər il Azərbaycanda 27 sentyabr "Ümumdünya Turizm Günü" kimi qeyd olunur. Turizm haqqında Azərbaycan Respublikasının Qanunun 14 -cü maddəsinə əsasən

### Turistlərin hüquq və vəzifələri

- Getdiyi ölkənin (yerin) ərazisinə daxil olma, orada olma qaydaları, yerli əhalinin adətləri, dini mərasimlər, müqəddəs yerlər, xüsusi mühafizə olunan təbiət, tarix, mədəniyyət abidələri və digər turizm obyektləri, ətraf mühitin vəziyyəti barədə məlumat almaq;
- Təxirəsalınmaz tibbi yardım almaq;
- Şəxsi və əmlak təhlükəsizliyinin təmin edilməsini, fərdi məlumatlarının qorunmasını tələb etmək;
- Təklif edilən turizm zərfinin (turizm xidmətinin) xüsusiyyətləri, turizm xidmətlərinin göstərilməsi üzrə müqavilənin şərtləri haqqında tam, dəqiq və düzgün məlumat almaq;
- Turizm zərfinin (xidmətinin) satışına dair müqavilə şərtlərinin yerinə yetirilmədiyi hallarda ona dəymiş maddi və mənəvi zərərin ödənilməsini tələb etmək".



**İqtisadçı, deputat Vüqar Bayramov:** "Azərbaycana gələn turistlərin sayında karantin tədbirlərinin yumşalması fonunda artımlar müşahidə olunur. Statistika da göstərir ki, bu ilin üç ayında ölkəyə gələn turistlərin sayı artıb.

2019-cu ildə ölkəyə maksimum səviyyədə 3,2 milyon turist gəlmişdir. Amma pandemiya səbəbindən ölkəyə gələn turistlərin sayı azaldı. Lakin artıq yenidən artımlar müşahidə olunur.

Ölkəyə gələn turistlərin içərisində ən çoxu Rusiyadan gəlir. Pandemiyadan əvvəlki dövrlərdə də Rusiyadan gələn turistlərin sayı kifayət qədər çox idi. Eyni zamanda Rusiya ilə yanaşı Gürcüstan, Türkiyə və İrandan Azərbaycana gələn turistlərin sayı da kifayət qədərdir. Dörd ölkə praktik olaraq Azərbaycana gələn turistlərin təxminən yarıdan çoxunu formalaşdırır. Eyni zamanda son dövrlər Avropadan, eləcə də körfəz ölkələrindən, bir sıra Asiya ölkələrindən də Azərbaycana gələn turistlərin sayında artımlar var.

Bütövlükdə gözlənilir ki, artıq yeni turizm mövsümündə Azərbaycana gələn turistlərin sayı yenidən çoxalacaq. Bu da təbii ki, Azərbaycanın turizm gəlirlərinin 2022-ci ildə artacağından xəbər verir".

**İqtisadçı Elşad Məmmədov:** "Sözsüz ki, turist axınları nöqteyi-nəzərdən Azərbaycan üçün ən prioritet Rusiya turistləridir. Nəzərə aldıqda ki, Rusiyadan digər ölkələrə gedən turistlərin sayı beynəlxalq gərginliyə görə azalacaq, bu Azərbaycan üçün olduqca məqsədli bazardır.

Nəzərə almaq lazımdır ki, artıq ilin əvvəlindən ölkəmizə Rusiyadan gələnlərin sayı xeyli dərəcədə dəfələrlə artmışdır və mən düşünürəm ki, bu bazar uğrunda çox ciddi şəkildə Azərbaycan turizm industriasına aid olan qurumlar fəaliyyət göstərməlidir.

Eyni zamanda daxili turizm industriası-



nın və potensialının inkişafına səylər göstərilməlidir. Çünki dünya iqtisadiyyatında mövcud olan böhran bütövlükdə beynəlxalq turist axınlarına mənfi təsir göstərəcək və artıq göstərməkdədir. Ona görə də daxili turizmin inkişafı da prioritet olmalıdır. Yəni, bir tərəfdən Rusiyadan turist axınının təmin olunmasına çalışmaq lazımdır.

Digər tərəfdən isə daxili turizm infrastrukturunun və industriasının inkişafına istiqamətlənmək lazımdır. Bunun üçün isə investisiya axınlarının artmasına şərait olmalıdır. Bugünkü gün investisiyaların həcmi hesab edirəm ki, ürəkaçan deyil. Əgər biz iqtisadi inkişafa nail olmaq istəyiriksə, bunun açarı sözsüz ki, investisiya artımından keçir. O cümlədən də turizm industriasının həm xarici turistlərin gəlməsi nöqteyi-nəzərdən, həm daxili turizmin inkişafı baxımından turizm sektorunun bütövlükdə inkişafı sözsüz ki, həmin sahəyə investisiyaların artan xətt üzrə istiqamətləndirilməsindən keçir. Ona görə də mən düşünürəm ki, pul krediti siyasəti yumşalmalı, turizm sektoruna yatırılan investisiyaların həcmi kəskin şəkildə çoxalmalıdır".

***Ayşən Vəli***

---

# Azərbaycan sosialyönümlü dövlət modeli formalaşdırıb

Ölkənin inkişafında əsas rol oynayan sabitliyin möhkəmlənməsi Azərbaycanda iqtisadi imkanların genişlənməsi üçün biri-birindən əhəmiyyətli layihələrin icrasını sürətləndirir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və bu, davam etdirilməkdədir. Bu iqtisadi inkişaf ölkəmizdə mütərəqqi sosial siyasətin həyata keçirilməsi, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində əhəmiyyətlidir. Sosial siyasətin uğurla həyata keçirilməsinin məntiqi nəticəsi olaraq, vətəndaşların maddi rifah halı yaxşılaşdırılıb, sosial müdafiə və təminat sistemi gücləndirilib. O cümlədən, şəhid ailələrinin, Qarabağ əlillərinin, ümumilikdə, sağlamlığı məhdud olan insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində zəruri addımlar atılır.

Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ölkəmizdə dövlət başçısı tərəfindən həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Prezident İlham Əliyevin əhalinin sosial problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərməsi qazilərin, şəhid ailələri-



nin də həyat şəraitinin yaxşılaşmasına, onların ictimai hüquqlarının bərpa olunmasına şərait yaradıb. Prezident İlham Əliyevin göstərişi ilə postmüharibə dövründə icra olunan sosial dəstək paketi 100 min şəxsi əhatə edib, onlara 166 min xidmət göstərilib. Bu dövr ərzində şəhid ailə üzvləri və müharibə iştirakçılarından ibarət 93 min nəfərə 103 min sosial ödəniş təyin olunub. Mənzil proqramı 5 dəfə genişləndirilib, 2021-ci ildə 3000, postmüharibə dövründə 3500 mənzil verilib. Beləliklə, ümumilikdə 12500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə, 7400 müharibə əlili avtomobillə təmin olunub.

Statistik rəqəmlərə istinadən qeyd edək ki, Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə 300 müharibə əlili son nəsil protezlərlə, 1400 müharibə əlili 17 min reabilitasiya vasitəsi, 5 min ailə sosialpsixoloji, 1500 şəxs reabilitasiya xidmətləri ilə təmin edilib, 11 min şəxs aktiv məşğulluq proqramlarına cəlb olunub, vahid əlaqələndirmə mərkəzləri tərəfindən isə 30 min şəxsə xidmətlər göstərilib.

Bu günlərdə Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksinin açılışı görülən işlərin davamıdır. Doqquzmərtəbəli 12 binadan və 576 mənzildən ibarət yeni yaşayış kompleksi 2.76 hektar ərazidə inşa olunub. Şəhid ailələri və müharibə əlillərinə 200 mənzil və 50 avtomobilin təqdim olunmasının məhz müqəddəs Ramazan bayramında gerçəkləşməsi isə təsadüfi deyildi. Bu humanizm, sosial qayğıya ehtiyacı olan ailələrə xüsusi diqqət və islam dəyərlərinə sadiqlik Azərbaycan Prezidentinin idarəçilik konsepsiyasının mühüm tərkib hissələrindən olduğunu bir daha təsdiqləmiş oldu.

### "HƏR BİR ŞƏHİDİN XATİRƏSİ, ƏLBƏTTƏ, ONLARIN YAXINLARININ VƏ BÜTÜN AZƏRBAYCAN XALQININ QƏLBİNDƏ ƏBƏDİ YAŞAYIR VƏ YAŞAYACAQ"

Dövlətimizin başçısı və Birinci Xanım Mehriban Əliyeva Vətən müharibəsində şəxsi igidliyinə və şücaətinə görə "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmiş şəhid Mahir Məmmədovun ailəsinin qonağı olması da əlbəttə ki, humanizm prinsipindən, şəhid ailələrində olan ehtiramdan, diqqətdən qaynaqlanır. Dövlət başçısı şəhidin ailə üzvləri ilə söhbətində bildirdiyi kimi "Hər bir şəhidin xatirəsi, əlbəttə, onların yaxınlarının və bütün Azərbaycan xalqının qəlbində əbədi yaşayır və yaşayacaq. Keçən il sentyabrın 27-də - Anım Günündə biz o Anım yürüşünü sanki şəhidlərlə birlikdə etdik, onların şəkilləri ilə. Sonra o şəkillər onların ailələrinə təqdim edilmişdir. Yeganə təsəlli o ola bilər, başqa təsəlli ola bilməz".

### "BİRİNCİ VƏ İKİNCİ QARABAĞ MÜHARİBƏLƏRİNİN ŞƏHİDLƏRİNİN AİLƏLƏRİNƏ BU GÜNƏ QƏDƏR 12 MİNDƏN ÇOX MƏNZİL VERİLİB"

Cənab İlham Əliyev bütün şəhidlərimizin ailələrinin məişət problemlərinin həllinin bizim borcumuz olduğunu bildirib: "Prezident kimi mənim və dövlətimizin borcudur. Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ailələrinə bu günə qədər 12 mindən çox mənzil verilib. Bu, yenə də bizim borcumuzdur".

Birinci Qarabağ müharibəsinin şəhid ailələrinin bəzilərinin evlərlə təmin edilmədiyini diqqətə çatdıran Cənab Prezident 12 min 500 mənzilin verildiyini diqqətə çəkib: "Ancaq hələ də növbədə duranlar var. Ona görə mən dedim ki, birincisi, məcburi köçkünlər üçün biz artıq Qarabağda, Zəngəzurda evlər tikməyə başlamışıq. Onlar orada yaşamalıdırlar. İkincisi, tezliklə şəhid ailələri, yaralı olan hərbçilərimizin problemlərinin həlli üçün bu gözəl evləri biz şəhid ailələrinə təqdim edək. Keçən il 3 min, bu il 1500 mənzil verilib və bundan sonra da veriləcək".

Azərbaycan dövlətinin bu diqqət və qayğısı bütün cəmiyyətimiz, o cümlədən, müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır. Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Ulu Öndər Heydər Əliyev siyasəti - Azərbaycanı uğurlu inkişafa aparan yol

***Azərbaycanda dövlət quruculuğu, iqtisadi dirçəliş, sosial-siyasi həyatda tərəqqi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev Azərbaycanı bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxarıb. Azərbaycan dövlətini dünya dövlətləri arasında irəli çıxaran, ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi.***

Ümummilli Liderin siyasi zəkasının məhsulu olan qüdrətli Azərbaycan bu gün öz inkişaf tempinə görə, dünyanın lider dövlətləri sırasındadır. Ulu Öndərin məqsədyönlü siyasəti və əzmkar fəaliyyəti nəticəsində Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sisteminin formalaşmasına nail olunub. Müasir Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış, elm, təhsil və mədəniyyətin inkişafı, məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi Şəxsiyyətin ideyaları Azərbaycan dövlətinin və xalqının qarşısında yeni-yeni üfüqlər açıb. Bu gün müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın qazandığı böyük uğurlar, məhz Ulu Öndər Heydər Əliyev dühasının bəhrəsidir. Ümummilli Lider Heydər Əliyevin qətiyyəti və uzaqgörənliyi sayəsində Azərbaycanda ictimai-siyasi sabitliyə nail olunub, dövlətçiliyimiz məhv olmaq təhlükəsindən xilas edilib.

Düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı dünya birliyinin fəal üzvünə çevirən, bugünki uğurlarımız üçün möhkəm baza yaradan Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının tarxində böyük rolu vardır. Onun hər addımı ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələrini yazıb. Onun ideyaları hər bir azərbaycanlı üçün dəyərlidir. Böyük Şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanı, xalqını, onun dövlətçilik tarixini çox çətin sınaq və imtahanlardan çıxarıb. Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etdiyi dövrdən etibarən, Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına və xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə başlanılıb. Ulu Öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq olub. Kənd təsərrüfatının və sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafında, sosial məsələlərin həllində və əhalinin rifah halının yaxşılaşdırılmasında böyük irəliləyiş əldə edilib. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlandı və dərhal onların icrasına başlanıldı. Böyük Siyasətçi iqtisadiyyat, o cümlədən, kənd təsərrüfatı və mədəniyyətin müxtəlif sahələrində vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist Partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək yolunda qətiyyətli yorulmadan çalışırdı. Qısa bir zaman məsafəsində bütövlükdə, respublika ərazisində yüzlərlə zavod, fabrik və istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi.

## İCTİMAİ-SİYASİ BÖHRAN ARADAN QALDIRILDI VƏ İNKİŞAFIN TƏMƏLİ QOYULDU

1990-cı illərin əvvəlləri Azərbaycan dövrünün ağır günlərini yaşayırdı. Bir tərəfdən, separatçı qüvvələr və onların himayədarları ölkəmizi parçalayır, digər tərəfdən, iqtisadiyyatımız tamamilə dağılmışdır. Şəhər və kəndlərimiz bir-birinin ardınca işğal edilirdi. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan və bir-birini əvəz edən səriştəsiz siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırmışdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Xalqı bütövlükdə, uçuruma sürükləyən məqamlar istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. İqtisadiyyatımız böhranlı vəziyyətə gəlib çatmış, işsizlik, demək olar ki, kütləvi hal almışdı. Bunun nəticəsi olaraq əhalinin yaşayış səviyyəsi minimum səviyyəyə çatmışdı. Ölkənin ictimai-siyasi həyatında anarxiya, xaos hökm sürürdü. 15 İyun 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəni düçar olduğu vəziyyətdən çıxardı. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı. Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental mahiyyət kəsb etməyə başladı.

Dahi Öndər Heydər Əliyev Ona etimad göstərənlərin ümidini tez bir zamanda doğrultdu. 15 iyun 1993-cü il tarixində baş verən hadisə - Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil həyatının yeni səhifələrini yazdı. Tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu və dövlətçiliyimizi yox olmaq təhlükəsindən qurtardı. Ulu Öndər Heydər Əliyev respublikanın müstəqilliyini qorudu, ölkədə tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Müstəqil Azərbaycanın Qurucusu Heydər Əliyev ən yeni tariximizin çətin anlarından şərəflə çıxaraq, müstəqilliyimizin gerçəkləşməsində və ictimai-siyasi həyatımızın bütün istiqamətləri üzrə inkişafın təmin edilməsində qarant rolunu oynadı. Ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi və tənəzzülə uğramasının qarşısının alınması, yeni dövrün tələblərinə uyğun tərzdə islahatların həyata keçirilməsi önəmli idi ki, Heydər Əliyev də müdrikcəsinə dövrün irəli sürdüyü bu tələbləri müstəqil Azərbaycan dövlətində ardıcıl şəkildə həyata keçirdi və ölkəmizdə yeni iqtisadi mühit, azad bazar iqtisadiyyatı formalaşdı. Sonrakı dövrlərdə Azərbaycan vətəndaşlarının sosial durumunun yaxşılaşdırılması ilə bərabər, dövlət quruculuğu siyasətinin ardıcıl surətdə həyata keçirilməsi, Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artırılması istiqamətində addımlar atıldı.

## "1994-CÜ İLDƏN AZƏRBAYCAN DÖVLƏTİ ÖZÜNÜN YENİ NEFT STRATEGİYASINI HƏYATA KEÇİRİR"

1994-cü ildə "Əsrin Müqaviləsi"nin imzalanması milli iqtisadi inkişafın təməlini qoydu. Əlbəttə, "Əsrin Müqaviləsi"nin imzalanması tarixi hadisə və dönüş nöqtəsi idi. Azərbaycanın "Əsrin Müqaviləsi"ndən başlanan yolu haqqında Ümummilli Lider Heydər Əliyev belə deyib: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən, neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən ibarətdir".

"Əsrin Müqaviləsi"nin tərəfdaşı olan ölkələrin, demək olar ki, hər biri dünyada böyük nüfuza və gücə malik ölkə idi. Həmin dövr üçün bu ölkələrin Azərbaycanın tərəfdaşına çevrilmələri təhlükəsizliyimizin təminatına səbəb olan amillərdəndir. Bu müqavilə Azərbaycanın dövlət təhlükəsizliyinin təminatçısına çevrildi. Nəinki regionda, qlobal miqyasda nəhəng neft kəməri olan Bakı-Tbilisi-Ceyhanın əsası qoyuldu. "Əsrin Müqaviləsi" sayəsində Azərbaycana birbaşa investisiyalar qoyuldu və ölkəmiz dünya bazarında iqtisadi müttəfiq kimi tanındı. Bununla yanaşı, Azərbaycan beynəlxalq hüquq müstəvisində iqtisadi maraqlarını və iqtisadi hüquqlarını qorumağa başladı. Ulu Öndərin Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılması oldu. Belə ki, 1995-ci ildə qəbul olunmuş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını formalaşdırdı. Azərbaycan demokratik-hüquqi və dünyəvi dövlət kimi, ilk dəfə olaraq, insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçdi. Dahi Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu ali Sənəd müstəqil Azərbaycan Konstitusiyası kimi tarixə yazıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açdı.

## AZƏRBAYCAN DÜNYAYA NÜMUNƏ OLA BİLƏCƏK YENİ GEOİQTİSADİ GÜC MƏRKƏZİ MODELİNİ YARADIB

Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan siyasi və iqtisadi müstəqilliyini möhkəmləndirib, dövlətçiliyini inkişaf etdirib, demokratik dəyərlərə yiyələnib və özünün liberal prinsiplərə əsaslanan iqtisadi modelini yaradıb. Respublikamız, eyni zamanda, bütün dünyaya nümunə ola biləcək yeni geoiqtisadi güc mərkəzi modelini yaradıb. Azərbaycan qarşıdakı onilliyin inkişaf istiqamətlərini müəyyənləşdirib. Qarşıdakı dövrün layihələri ümidverici və irəliyə baxmaq üçün stimulvericidir.

Azərbaycanda bu gün müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Onun siyasi xadim olaraq yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olmuşdur. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Azərbaycan durmadan yüksəlir, inkişaf edir və uğurlar qazanır. 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Bu gün Azərbaycanı 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil. Əgər Azərbaycanın müstəqilliyinin ilk illərində baş verən hadisələrin qarşısı alınmasaydı və Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı olmasa idi, əlbəttə ki, bu günün Azərbaycan reallıqlarından belə söhbət açıla bilməzdi. Bu gün müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər keçirilir. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasına gətirib çıxardı. Azərbaycan Ordusunun döyüş taktikası dünya ölkələrində öyrənilir. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu döyüş meydanında erməniyə öz gücünü göstərdi. Azərbaycan 44 günlük Vətən müharibəsində neçə illərə bərabər bir yol getdi, döyüş əməliyyatı apardı. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə qalib dövlət oldu. Azərbaycan xalqının həmrəyliyi, xalq-iqtidar birliyi uğurları şərtləndirən amil olduğundan ölkəmizi daha da böyük nailiyyətlər gözləyir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İkinci dünya müharibəsi iştirakçıları daim diqqət və qayğı ilə əhatə olunublar

*Prezident İlham Əliyev İkinci Dünya müharibəsi iştirakçıları ilə bağlı Sərəncam imzalayıb*

**Prezident İlham Əliyev 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.**



Sərəncamda 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1500 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750 manat məbləğində birdəfəlik maddi yardım veriləcək. Sərəncama əsasən, 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan 3,5 milyon manat ayrılıb.

### AZƏRBAYCAN İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ: FAKTLAR, RƏQƏMLƏR VƏ REALLIQLAR

Qeyd edək ki, müstəqilliyimizin ilk illərində İkinci Dünya müharibəsi iştirakçılarına biganə münasibət yaransa da, xalqımızın ümummilli lideri Heydər Əliyevin respublikaya rəhbərliyə qayıdışından - 1993-cü ildən sonra bu biganəlik aradan qaldırılıb. 9 May - Qələbə günü yenidən dövlət bayramı kimi qeyd olunmağa başlayıb, İkinci Dünya müharibəsi iştirakçılarının sosial müdafiəsi istiqamətində fəal dövlət siyasəti formalaşıb. 77 ildir ki, döyüş meydanlarında həlak olan həmvətənlərimizin xatirələrini əziz tutaraq, bu gün yaşı 90-ı ötmüş, 100-ü haqlamış veteranlarımıza cansağlığı arzulayaraq Qələbəni bayram edirik.

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEV: "İKİNCİ DÜNYA MÜHARİBƏ VETERANLARI XALQIMIZIN QIZIL FONDUDUR"

1993-cü ildə Azərbaycan xalqının istək və tələbi ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtması bütün sahələrdə yüksəlişə doğru dönüşün əsasını qoyduğu kimi, 9 May Qələbə Gününə və İkinci Dünya müharibəsi veteranlarına qarşı əvvəlki hakimiyyətin cəmiyyətdə formalaşdırmağa cəhd göstərdiyi ögey münasibəti də birdəfəlik aradan qaldırdı. Ulu Öndər Heydər Əliyev deyirdi: "Tariximizi müəyyən dövrdə bir qüvvələr təhrif edirdi, son illərdə, xüsusən 1991-ci, 1992-ci, 1993-cü illərdə isə başqa cür təhrif etməyə başladılar. Yenə də deyirəm, 1992-ci ildə eşitdik ki, bu qələbə bayramını Azərbaycanda heç yerdə qeyd etmirlər. Mən təəccübləndim. Naxçıvanda biz veteranlarla görüşdük, danışdıq, hazırlıq gördük və bayramı qeyd etdik. Sonra mən araşdırmağa başladım ki, bəs bunu niyə qeyd etmirlər? Bildirdilər ki, o vaxt hakimiyyətdə olan adamlar deyirdilər ki, bu, Vətən müharibəsi, qələbə deyil. O vaxt mən də oradan-buradan eşidirdim, bəziləri deyirdilər ki, faşistlər gəlib Azərbaycanı tutsaydı, yaxşı olardı. Belə sözlər də danışanlar var idi. Yəni, belə ideoloqlar meydana çıxmışdılar və tarixi təhrif edirdilər. Axı, bundan da böyük cinayət ola bilməz". Heydər Əliyevin hakimiyyətə dönüşündən sonra, 1994-cü ildən başlayaraq 9 May - Qələbə Gününün rəsmi dövlət bayramı səviyyəsində qeyd edilməsi, müharibə veteranlarına diqqət və qayğının artırılması, imtiyazların verilməsi, problemlərinin yoluna qoyulmasına nail olundu. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev müharibə veteranlarını "Xalqımızın qızıl fondu" adlandırırdı.

### PREZİDENT İLHAM ƏLİYEV: "BİZ VETERANLARIMIZLA YALNIZ FƏXR EDƏ BİLƏRİK"

Ulu Öndərin bu sahədəki siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin xalqımızın tarixindəki rolunu daim yüksək qiymətləndirir. May ayında Rusiyanın nüfuzlu "Natsionalnaya oborona" jurnalına müsahibə verən Prezident İlham Əliyev bu barədə deyib: "Biz tarixdə bu əlamətdar günə qayğı ilə yanaşır, döyüş meydanında və arxa cəbhədə qələbəyə töhfə verənlərin xatirəsini ehtiramla yad edir, öz həyatları bahasına dünyanı faşizmdən xilas etmiş zabit və əsgərlərin igidliklərinə hörmətimizi bildiririk".

Faşizm üzərində tarixi Qələbənin ildönümü hər il respublikamızda təntənəli şəkildə qeyd olunur. Prezident İlham Əliyev hər il Qələbə Günündə İkinci Dünya müharibəsinin görkəmli sərkərdələrindən biri, xalqımızın rəşadətli oğlu, tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, xalqımızın igid oğullarının əziz xatirəsini dərin ehtiramla anır, müharibə veteranları ilə görüşür, onları Qələbə bayramı münasibətilə təbrik edir. Çünki böyük qanlar və itkilər hesabına qazanılan bu qələbə təbii ki, adi qələbə deyildi. Bu, dünyanın yüzlərlə xalqının, Yer kürəsinin milyonlarla insanının eyni arzularını və məqsədini birləşdirib onu bəşəri həmrəyliyə çevirən bir amal idi. Bu qələbə irqindən, dinindən, rəngindən, asılı olmayaraq neçə-neçə millət övladının babalarının bugünkü nəvələrə, gələcək nəsillərə yadigar qoyduğu əsl səadət qələbəsi idi. Bu qələbə Azərbaycanlıların şücaəti əsl vətənpərvərlik nümunəsidir. Xalqımız faşizm üzərində Qələbənin əldə olunması üçün özünün 600 mindən çox oğul və qızını cəbhəyə yola salmış və Qafqazdan Berlinədək şanlı döyüş yolu keçərək əsl qəhrəmanlıq nümunələrini dünyaya nümayiş etdirdilər. 170 mindən çox azərbaycanlının orden və medallarla təltif edilməsi, 123 nəfərin Sovet İttifaqı Qəhrəmanı adına, 30 nəfərin isə "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülməsi bunun sübutudur.

Və bu gün də Qələbə bayramı ərəfəsində Prezident İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması artıq ənənə halını alıb. Həmçinin, dövlət başçısının müharibə veteranlarının sosial müdafiəsinin gücləndirilməsi, xatirəsinin əbədiləşdirilməsi istiqamətində atdığı addımlar, yubiley medallarının təsis edilməsi cəmiyyətdə böyük razılıqla qarşılanır.

Bir sözlə, İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlıq və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsi olmaqla, İkinci Dünya müharibəsində həlak olan 300 mindən çox soydaşımızın alman faşizminin qarşısını almaq uğrunda gedən döyüşlərdə həyatlarını qurban vermiş Azərbaycan vətəndaşlarının xatirəsini böyük minnətdarlıq hissi ilə yad edirik. Bu qələbə bayramının şərəfini uca tutmaq, hər bir veterana diqqət və qayğı göstərmək, onları anmaq hər birimizin müqəddəs borcudur.

**RƏFİQƏ HÜSEYNOVA**

# Distant təhsilin yeni forması nələrə səbəb olacaq?

**"Azərbaycanda distant təhsil məsələsi "Təhsil haqqında" qanunda öz əksini tapıb. Amma təəssüflər olsun ki, distant formalı təhsil ölkəmizdə tanınmırdı. Ölkəmizdə əyani və qiyabi şöbə var idi. Amma uzaqdan idarəetmə əsasında, yəni distant formalı təhsil isə mövcud olsa da həmin təhsil tanınmırdı. Daha doğrusu, diplomları tanınmırdı. Amma indi ali qanunvericilik orqanı tərəfindən müvafiq olaraq "Təhsil haqqında" qanunvericilikdə distant formalı təhsilin tanınması bağlı müvafiq müzakirələr aparılır. Yaxın gələcəkdə ola bilsin ki, artıq bu formalı təhsil də tanınacaq". Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi deyib.**

Onun sözlərinə görə, bu o deməkdir ki, insanlarımızın daha da təhsilə marağı artacaq: "Hansı ki, müəyyən şəxslər var idi ki, onlar təhsil almaq istəyirdilər. Amma sadəcə distant olmayan təhsildən faydalana bilmirlər. Yəni əyani və yaxud da qiyabi təhsildən faydalana bilmirdilər. Əsasən kimlər idi? Əhalinin işləyən təbəqəsi, eyni zamada ailəli şəxslər, xüsusilə evdar xanımlar".



Elçin Əfəndi sözlərinə belə davam edib: "Bəzən biz müşahidə edirik ki, IX-X sinifdə oxuyan qız uşaqları ailə həyatı qurараq təhsilini dayandırırdılar. Amma indi distant formalı təhsildən həmin şəxslər faydalana bilərlər. Yəni, müvafiq dövlət sənədini əldə edə bilsinlər. Ümumilikdə, əgər distant formalı təhsil tanınarsa, yəni bu sistem tətbiq olunarsa düşünürəm ki, təhsilimiz üçün fayda vermiş olacaq. Əlbəttə, distant təhsil özü ilə müsbət məqamlarla yanaşı, mənfi məqamlar da gətirə bilər. Yəni, bundan da xüsusi olaraq daha çox müəyyən şəxslər faydalana bilər. Hansı ki, həmin şəxslər distant formalı təhsil almışam deyib də müvafiq dövlət orqanlarında və yaxudda müvafiq strukturlarda çalışmaq imkanı qazana bilərlər. Ona görə də düşünürəm ki, artıq sərt nəzarət mexanizminin tətbiq olunması da vacibdir. Yəni, biz distant təhsili elə tətbiq etməliyik ki, həmin təhsili alan şəxslərdə peşəkar mütəxəsis olaraq formalaşa bilsinlər".

***Ayşən Vəli***

# Media üçün dövlət rüsumu 10 dəfə azaldılıb

Azərbaycanda media üçün dövlət rüsumu 10 dəfə azaldılıb. SİA xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev "Dövlət rüsumu haqqında" qanuna dəyişiklik edilməsi barədə qanunu təsdiqləyib. Belə ki, qanunun 22-ci maddəsində (Lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verilməsinə görə dövlət rüsumunun dərəcələri) "ümumrespublika televiziya yayımı", "ümumölkə yerüstü televiziya yayımçısı" ifadəsi ilə əvəz edilərək dövlət rüsumunun məbləği 10 dəfə azaldılaraq 50 000 manatdan 5 000 manata qədər endirilib.



# Azərbaycanın uğurlarının əsasını Heydər Əliyev siyasəti təşkil edir



**Azərbaycan xalqının tarixində müstəsna rol oynayan şəxsiyyətlər var. Ümummilli Liderimiz Heydər Əliyev də xalqımızın və dövlətçiliyimizin tarixində əvəzolunmaz şəxsiyyətdir. Ulu Öndərimiz xalqımız qarşısında misilsiz xidmətlər göstərib. Sovetlər dönəmində Ulu Öndər Heydər Əliyev Azərbaycanı inkişaf və tərəqqi yoluna çıxardı. 1990-cı illərin əvvəlində isə bu dahi şəxsiyyət Azərbaycan dövlətini məhv olmaqdan xilas etdi. 1990-cı illərin siyasi mənzərəsi, həqiqətən də, acınacaqlı idi. 1991-ci ilin oktyabr ayında dövlət müstəqilliyi elan olunsa da, bu müstəqillik kağız üzərində idi. 1992-1993-cü illərdə hakimiyyətdə olan qüvvələr isə ölkəmizi uçuruma aparırdı. Belə bir şəraitdə Azərbaycan xalqının təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev Naxçıvandan Bakıya qayıtdı. Ümummilli Lider Heydər Əliyev bu qayıdışı ilə ölkənin xaos, vətəndaş qarşıdurması, dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən xilas edilməsi tarixi missiyasını həyata keçirməyə başladı. İyunun 15-də Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi.**

Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu. Belə ki, Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi əsasında atdığı praqmatik addımlar sayəsində ölkədə hökm sürən dağıdıcı proseslərin neytrallaşdırılmasına nail olundu. Və Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. Bir sözlə, böyük dövlət xadimi Heydər Əliyev Azər-



*Fatma Yıldırım,*
*Milli Məclisin üzvü*

baycanı vətəndaş müharibəsindən - qarşıdurmadan, tənəzzül və məhv olmaq təhlükəsindən xilas edərək dirçəliş yoluna çıxardı və Azərbaycanı parçalamaq, forposta çevirmək və korporativ maraqlar əsasında idarə etmək istəyənlər öz niyyətlərinə çata bilmədilər. Asayiş və qayda-qanun bərqərar edildi, soyğunçuluğa, vətəndaşların əmlakının qəsb olunmasına son qoyuldu. Ən əsası, nizami ordu yaradıldı, Qarabağ müharibəsində atəşkəs əldə edildi, münaqişənin dinc yolla nizama salınmasına dair danışıqlara başlandı. Qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son verilməsi, ilk parlament seçkilərinin keçirilməsi, referendum yolu ilə Konstitusiyanın qəbul edilməsi, idarəetmə sisteminin formalaşdırılması, neft müqavilələrinin imzalanması, Azərbaycanın iqtisadi dirçəlişinin əsasının qoyulması, respublikamızın beynəlxalq əlaqələrinin formalaşdırılması, ölkənin dünya birliyinə inteqrasiyası prosesinə başlanması dövlətimizin tərəqqi yolunda inamla irəliləməsini təmin etdi, Azərbaycanın qarşısında aydın perspektivlər açıldı.

Sadalananların qanunauyğun nəticəsi kimi, 1993-cü il oktyabr ayının 3-də keçirilən prezident seçkilərinin nəticələrinə müvafiq olaraq xalqın dərin etimadı ilə Azərbaycan Prezidenti seçilən Ümummilli Lider Heydər Əliyev qısa zamanda Özünün ümummilli maraqlara xidmət edən və ali prinsiplərə söykənən fəaliyyəti ilə ölkədə milli həmrəyliyi, tərəqqini və inkişafı təmin etdi. Qeyd etdiyimiz kimi, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, qarışıq seçki sistemi əsasında parlament seçkilərinin keçirilməsi, dövlətin hüquqi əsaslarının gücləndirilməsi, başqa sözlə, müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaradıldı.

Bir sözlə, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan milli inkişaf strategiyasının fonunda həyata keçirilən sistematik işlər və görülən məqsədyönlü tədbirlər siyasi sistemin təşəkkül tapmasını, onun struktur elementlərinin mütəmadi təkmilləşməsini təmin etmiş oldu. Öz fəaliyyətini Azərbaycanın hərtərəfli inkişafına həsr edən Ulu Öndər, eyni zamanda, dövlətin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində mühüm addımlarını atdı. Milli ideologiyanın yaradılması da Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsindən biridir. Məlum olduğu kimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid mərkəzdə birləşdirən milli məfkurəyə çevrildi.

Bunlarla yanaşı, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik və balanslaşdırılmış xarici siyasət kursu nəticəsində Azərbaycanın beynəlxalq əlaqələri genişlənməyə başladı. Ölkəmiz beynəlxalq arenada müstəqil dövlət kimi tanındı, ikitərəfli və çoxtərəfli səmərəli xarici əlaqələr quruldu.

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycan iqtisadiyyatında dönüş yarandı və genişmiqyaslı işlərə başlanıldı. Daha sonra Azərbaycan neftinin dünya bazarlarına nəqli istiqamətində müstəsna əhəmiyyət kəsb edən tədbirlər görüldü və mühüm əməkdaşlıq layihələri gerçəkləşdirildi. Bütövlükdə, milli maraqlara əsaslanan uğurlu xarici siyasət Azərbaycanın beynəlxalq mövqeyini möhkəmləndirdi, Azərbaycan etibarlı tərəfdaş kimi tanınmağa başladı.

Ümumiyyətlə, Heydər Əliyev dühasını, onun xalqımız qarşısında xidmətlərini öyrənmək uzun illər, dərin elmi-siyasi araşdırmalar tələb edir. Ulu öndərimizin böyüklüyü, onun xalqımızın rifahı naminə həyata keçirdiyi mühüm tədbirlərin mahiyyətini tam dərk etmək üçün böyük zaman tələb olunur. Zaman keçdikcə isə bu dahi insanın adı Azərbaycan xalqının simvoluna, əməlləri isə hünər rəmzinə çevrilir. Hələ sağlığında əfsanələşən, siyasət olimpini fəth etmiş nadir şəxsiyyət Heydər Əliyev haqqında dünyanın məşhur simalarının necə heyranlıqla, ehtiramla danışdıqlarının şahidiyik. Müasiri olan dünya liderləri, nüfuzlu dövlət adamları və siyasi xadimləri tərəfindən dünya miqyasında böyüklüyü etiraf edilən, o cümlədən ABŞ-ın sabiq Prezidenti Corc Buşun "şəksiz lider", Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "türk dünyasının tanınan və sevilən lideri", Rusiya Prezidenti Vladimir Putinin "siyasət nəhəngi", Fransanın sabiq Prezidenti Jak Şirakın "qeyri-adi şəxsiyyət" adlandırdıqları Heydər Əliyev şəxsiyyətinin zirvəsi dahi liderimizin anadan olmasının 99-cu ildönümü ərəfəsində də yenidən göz önündə canlanır, qəlbimizdə bir daha qürur və iftixar hissləri baş qaldırır.

Şübhəsiz, Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu dövlət quruculuğu siyasətinin fonunda əldə edilən nailiyyətlərin sayını istənilən qədər artırmaq olar. Amma təkcə sadalananlar da onu deməyə əsas verir ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasət bu gün uğurla və inamla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs Azərbaycanın qüdrətinin daha da artmasını təmin edib, ölkəmiz möhtəşəm nailiyyətlər qazanaraq yeni zirvələr fəth edir. Milli inkişaf modelinin uğurla tətbiq edilməsi və hədəflənən nəticələrin əldə olunması, sosial-iqtisadi və institusional islahatların uğurla həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin qorunması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsi və digər nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir.

Bununla yanaşı, milli maraqlara əsaslanan müstəqil xarici siyasət kursuna malik olan Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində mövqeyi mütəmadi olaraq möhkəmlənir. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin nəticəsidir ki, ötən illərdə müxtəlif beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsi tanındı və bu yöndə sənədlər qəbul edildi. 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsində bu beynəlxalq sənədlər hüquqi baza rolunu oynadı. Eyni zamanda, cənab İlham Əliyev torpaqlarımızı işğaldan azad etməklə ATA vəsiyyətini yerinə yetirmiş oldu.

Beləliklə, Azərbaycan gələcəyə doğru inamla, yeni zəfərlərlə addımlayır. Bu nailiyyətlərin əsasını isə Heydər Əliyev siyasəti təşkil edir. Bu gün hər birimiz dərk edirik ki, müstəqil Azərbaycan dövləti bütün həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevin şah əsəridir. Şübhə yoxdur ki, xalqımız onun müəllifini özünün tarixində və qəlbində əbədi yaşadacaq, Azərbaycan və Heydər Əliyevin adı əsrlər boyu bütün dünyada qoşa səslənəcək. Azərbaycan xalqı Ulu Öndərin siyasi kursunu davam etdirməklə Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaq, yeni-yeni zəfərlər qazanacaq!

# Qədim Şuşa kitabxanalarının tarixi

**30 ilə yaxın bir dövrdə Ermənistanın əsarətdə saxladığı qədim və əzəli Azərbaycan torpaqlarında mədəni irsimizə, tarixi abidələrimizə qarşı törədilmiş vandalizm aktları nəticəsində dağıdılmış kitabxanalar və kitab fondlarının bərpası, erməni saxtakarlığının qarşısının alınmasında, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın tarixi, iqtisadiyyatı, elmi, təhsili və mədəniyyəti, baş vermiş münaqişələr, yerli əhaliyə qarşı erməni vəhşilikləri haqda məlumatların, bütövlükdə Qarabağ həqiqətlərinin həm ölkə daxilində, həm də dünya ictimaiyyətinə qərəzsiz çatdırılması hər birimizin qarşısına mühüm vəzifələr qoyur.**

2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 05 yanvar 2022-ci il tarixli sərəncamı ilə ölkədə "Şuşa ili"nin elan edilməsi də xalqımız üçün mühüm tarixi əhəmiyyət kəsb edir. Bu baxımdan Şuşa ilində Şuşa mədəniyyəti, kitabxanaları, kitab çapı, əhalinin mütaliə vərdişləri ilə bağlı araşdırmanın aparılması çox aktualdır.

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunan Şuşa Kiçik Qafqazda Qarabağ silsiləsi ərazisində yerləşir və sahəsi 289 km?-dir. Şuşa rayonunun ərazisinə bir şəhər və 31 kənd daxildir. İnzibati mərkəzi Şuşa şəhəridir. 1992-ci il may ayının 8-də rayon erməni silahlı dəstələri tərəfindən işğal olunmuşdur. İşğal zamanı 480 nəfər insan qətlə yetirilmiş, 600 nəfər yaralanmış, 150 nəfər əlil olmuş, 552 körpə yetim qalmış, 20 mindən artıq əhali isə məcburi köçkün vəziyyətinə düşmüşdür. Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələri, müqəddəs məbəd və məscidlər, kitabxanalar zəngin kolleksiyaları ilə birlikdə düşmən tərəfindən talan edilmişdir.İkinci Qarabağ müharibəsi nəticəsində 8 noyabr 2020-ci il tarixində doğma Şuşamız mənfur düşməndən azad edilmişdir.

Tarixi mənbələrə əsaslanaraq deyə bilərik ki, Qarabağ ərazisinə XIX əsrin 30-cu illərindən etibarən köçürülməyə başlayan ermənilər, bu torpaqların əsl sahibləri olmadığından və "gəlmə xalq" kimi zorla məskunlaşdırıldıqları torpaqlarda hər hansı bir elm, təhsil, mədəniyyət ocağının yaradılmasına nə bir təşəbbüs göstərmiş, nə bu sahəyə bir töhfə vermiş, nə də bu müəssisələrin rəhbəri olmuşdur. Qədim Şuşada tarixən ilkin kitabxanaların yaradılması, günümüzə qədər fəaliyyəti və inkişafı azərbaycanlılar tərəfindən həyata keçirilib. Ermənilər isə əzəli xislətlərinə uyğun olaraq yalnız məhv etmək, dağıtmaq, talamaqla məşğul olublar.

Apardığımız araşdırma nəticəsində aydın olur ki, Qarabağ ərazisində ilk kitabxana-qiraətxana məhz Şuşada yaradılmışdır. Şuşa Realnı məktəbinin fransız dili müəllimi Əhməd bəy Ağaoğlu 1896-cı ildə Şuşada müsəlman qiraətxanası adı ilə şuşalılar üçün yeni kitabxana açmışdır. Bəzi mənbələrdə qiraətxananın 3 il ərzində fəaliyyət göstərdiyi və kitab fondunun 500 nüsxəyə çatdığı da bildirilir. Şuşa əsrlərdən bəri xalqımızın mədəniyyət mərkəzi kimi tanınmış və ilk kitabxana kimi ilk kitab çapı da Şuşada baş tutmuşdur. Belə ki, o zaman Şuşada məktəb şəbəkəsinin genişlənməsi dərs kitablarına tələbatı artırmış və bu da öz növbəsində kitab çapını zəruri etmişdir. Dövrünün görkəmli şəxsiyyətlərindən, mütərəqqi ziyalılarından biri olmuş Mir Möhsün Hacı Seyid Əhmədoğlu Ağamirzadə Nəvvab Qarabaği (1832-1918) 1884-cü ilin əvvəlində daşbasma (litoqrafiya) üsulu ilə kitab çap edən mətbəə təşkil etmiş və burada dərs kitablarını, özünün, eləcə də müasirlərinin bir sıra məcmuələrini, dini risalələri çap etmişdir. Kitab çapı genişləndikcə onların toplandığı və istifadə edilə biləcəyi bir məkana da ehtiyac duyulurdu. Elm öyrənmənin, kitabın, mütaliənin əhəmiyyətini anlayan ziyalımız M.M.Nəvvab 1903- cü ildə Gövhərağa məscidinin həyətində növbəti kitabxana qiraətxananı da açmışdır. Hətta mənbələrdə bu kitabxanada onun oğlu Miriş ağanın da çalışması barədə məlumatlar qeyd edilib. Nəvvabın mətbəəsində çap edilən kitablar Şuşa kitabxanalarında mühafizə edilir və geniş oxucu kütləsinə təqdim edilirdi. Dövrünün alimləri həmin kitabxanalarda toplaşır və elm, təhsil, ədəbiyyat barədə müzakirələr aparırdı. Beləliklə, Şuşada elmi, mədəni, ədəbi mühit formalaşırdı.

Sonralar Şuşada 1924-cü ildə şəhər kitabxanası təşkil edilmiş və ilk zamanlar kitabxananın 4875 nüsxə kitab fondu, 269 oxucusu olmuşdur. Digər bir maraqlı fakt isə odur ki, dövrünün tanınmış ziyalısı, yarım əsrdən çox bir dövrdə Azərbaycan maarifi və mədəniyyətinin inkişafında misilsiz xidmətləri olmuş Xosrov Axundzadə (Şaiq) 1935-ci ildə Şuşa şəhər kütləvi kitabxanasına müdir təyin olunmuşdur. Təbii ki, pedaqoji və zəngin ədəbi irsi ilə yanaşı "Qarabağın tarixçisi"kimi də tanınan Xosrov Şaiqin kitabxanaya rəhbərlik etməsi də əhaliyə kitabxana xidmətinin və kitabxananın fəaliyyətinin yaxşılaşdırılması, fondunun zənginləşdirilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edirdi. 1938-ci ildə Şuşa şəhər kitabxanasının fondunda 4875 nüsxə ədəbiyyat, 269 nəfər daimi oxucu, Şuşa rayon kitabxanasının fondunda isə 12000 nüsxə ədəbiyyat, 695 oxucu var idi. Həmin ildə Şuşada uşaq kitabxanası da yaradılmışdır.



Sonrakı illərdə 1 mərkəz, 31 kitabxana filialından ibarət Şuşa rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi istifadəyə verildi. 1977-ci ilin məlumatına əsasən Mərkəzi kitabxanada 50 minə yaxın kitab var idi. Yeni kitabxanada 160 yerlik oxu zalı, musiqi məktəbinin şagirdləri üçün linqafon zalı oxuculara xidmət edirdi. Kitabxananın müdiri Ruslan Əliyev idi. Kitabxanada mübadilə fondu yaradılmış və kənd əhalisinə bu fond vasitəsilə vaxtaşırı səyyar xidmət təşkil edilirdi. "Şuşa" qəzetində dərc edilmiş başqa bir məqalədə kitabxanada 2 şöbə- xidmət və uşaq şöbələri fəaliyyət göstərdiyi qeyd edilmiş, kitabxanada müxtəlif əlamətdar və tarixi günlərlə əlaqədar kütləvi tədbirlərin müntəzəm olaraq keçirildiyi də bildirilmişdir. Eyni zamanda göstərilir ki, kitabxana ölkədə dərc edilmiş "Pravda", "Kommunist", "Azərbaycan gəncləri", "Bakinskiy raboçiy" qəzetləri və "Azərbaycan", "Ulduz" jurnallarına da abunəliyi həyata keçirərək oxuculara xidmət zamanı dövri mətbuat nümunələri də təqdim edirdi. Kitabxananın fəal əməkdaşları arasında Ruslan Əliyev, Miniş Ələkbərova, Şura Həmzəyeva, Səmayə Rüstəmova, Tahirə Əliyeva, Ofelya Ağayeva, Zülfiyyə Məmmədova, Bəxtiyar Abdullayev, Lyudmila Vəliyeva fərqlənirdi.

Qeyd edək ki, rayonun yerli "Şuşa" qəzetində kitabxananın fəaliyyəti, qabaqcıl kənd kitabxanaları, fəal kitabxanaçılar haqqında vaxtaşırı məqalələr dərc edilir, geniş ictimaiyyət məlumatlandırılırdı. Qəzetin 1967-ci il 01 aprel tarixli sayında "Kitabxanalara ictimai baxış" adlı yazı dərc edilib. Bu yazıda göstərilir ki, rayonda 16 kütləvi kitabxana fəaliyyət göstərir, 5 kənd kitabxanası əsaslı təmir edilib. Rayon Mərkəzi kitabxanasında oxucuların sayı ötən ilin müvafiq dövrünə nisbətən 450 nəfər artmışdır.

Qəzetin digər 1968-ci il 14 noyabr sayında dərc edilmiş "Kitabxanadan istifadə qaydalarına ciddi əməl etməli" adlı yazıda Şuşa rayon kitabxanasının müdiri Ş.Həmzəyeva oxucular tərəfindən geri qaytarılmayan kitablar barədə məlumat verir. Bu məlumata əsasən kitabxanada qismən də olsa hansı kitabların olması barədə informasiya əldə etmiş oluruq: Mark Tven "Şəhzadə və dilənçi", Salam Qədirzadə "Başabəla Paşabala", Əlfi Qasımov "Adilənin taleyi", "İnsanın normal anatomiyası", H.Mehdi "Qara daşlar", Ə.Rzayev "Maldarlıq", M.Qəniyev "Baytarlıq mikrobiologiyası" və s..

1991-ci ilin məlumatına görə isə rayon MKS-də çalışan işçilərin sayı 103 nəfər, kitabxana fondunun ümumi həcmi 200 min nüsxə, oxucularının ümumi sayı 10 min nəfər təşkil etmişdir. 1992-ci il 8 may tarixində Şuşa rayonu erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş, rayon ərazisində etnik təmizləmə əməliyyatı aparılmışdır. İşğal nəticəsində rayon ərazisindəki 32 kitabxana və bu kitabxanalarda saxlanılan qədim və unikal kitablar yandırılmış və qiymətli nəşrlər məhv edilmişdir. Kitabxanaların dağıdılması nəticəsində dövlətə 1 milyon 106 min manat həcmində maddi ziyan dəymişdir. Erməni vandallarının törətdiyi mədəni və mənəvi ziyanı isə rəqəmlərlə hesablamaq mümkünsüzdür.

İşğaldan sonrakı dövrdə 1993-cü il fevral ayından etibarən Şuşa kitabxanası Bakı şəhəri N.Nərimanov rayonu, Təbriz küçəsi 2 A ünvanında yaşayış binasının altında 3 otaqda fəaliyyətini bərpa etmişdir. Təbii ki, kitabxananın fonduna məxsus kitablar işğal zamanı məhv edilmiş, heç bir nəşr Bakıya gətirilə bilməmiş, bərpa olunmuş kitabxana isə ziyalıların dəstəyi və səyləri nəticəsində yeni kitab fondu ilə fəaliyyətə başlamışdır.

Şuşa rayon MKS-nin direktoru Gülsarə Abbasovanın verdiyi məlumata əsasən Şuşa rayon MKS-nin yalnız 3 filialı işğaldan sonra fəaliyyətini çətinliklə də olsa bərpa etmişdir.

2007-ci ildə çap edilmiş "Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında" adlı ensiklopedik kitabda 2004-2005-ci illər üzrə regional kitabxanaların fəaliyyətinə dair bir sıra statistik göstəricilər təqdim edilmişdir. Burada 2004-cü ildə kitabxananın fondu 11037 nüsxə, kitab verilişi 2370 nüsxə, oxucuların sayı isə 395 nəfər olduğu göstərilir, 2005-ci ildə isə bu rəqəmlər müvafiq olaraq 19000 nüsxə, 9800 nüsxə, 420 nəfər idi. 2015-ci ilin məlumatına görə isə MKS-də kitab fondu 34912 nüsxə, oxucuların sayı 3871 nəfər, kitab verilişi 49212 olmuşdur. Halbuki işğaldan öncə 200 minə yaxın ədəbiyyat fondu olan Şuşa kitabxanası 10000 nəfərdən çox oxucu kütləsinə xidmət göstərirdi.

Şuşa rayon MKS-nin direktoru Gülsarə Abbasova ilə müsahibəmizdə aydın oldu ki, Şuşada ilk şəhər kitabxanasının yaranma tarixi 1897-ci ilin fevral ayı olduğu qəbul edilmiş, 2017-ci ildə isə indiki Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşa kitabxanasının yaradılmasının 120 illiyi qeyd edilmişdir. Şuşa şəhər kitabxanasının 120 illiyi münasibətilə Şuşa Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) bir sıra əməkdaşları nazirliyin "Fəxri mədəniyyət işçisi" döş nişanı və fəxri fərmanlarla təltif edilmiş, direktor Gülsarə Abbasova Əməkdar mədəniyyət işçisi adına layiq görülmüşdür.

Kitabxananın fəaliyyətinə dair göstəricilərin təhlili onu deməyə əsas verir ki, erməni işğalı kitabxananın həm fondunun məhv edilməsinə, həm fəaliyyətinin geriləməsinə, bir sıra avtomatlaşdırılmış kitabxana proseslərinin ləngiməsinə, regionun hərtərəfli inkişafına böyük zərbə vurmuşdur. Burada təkcə 1 statistikaya nəzər salsaq aydın olur ki, 200 min dəyərli, unikal və tarixi nəşrin məhv edilməsi, mühüm tarixi faktların təhrif edilməsi, 1 regionun tarixi, mədəniyyəti, elmi, təhsili və bütövlükdə milli-mənəvi dəyərlərinin talan edilməsi deməkdir. Və qeyd edək ki, 200 min nüsxə təkcə Mədəniyyət Nazirliyi şəbəkəsinə daxil olmuş kitabxanaların fonduna məxsusdur. Mənfur erməni quldurları Şuşada təkcə ictimai, kütləvi kitabxanaları deyil, orta məktəb, orta-ixtisas məktəbi, idarə və təşkilatlarda mövcud olan kitabxanaları, şəxsi kitabxanaları da yandırmış, evlərdə saxlanılan neçə-neçə qiymətli kitablar, əlyazmalar, nadir nüsxələr də tamamilə məhv edilmişdir.

İnanırıq ki, 2020-ci ildə qazandığımız zəfərdən sonra ən qısa zamanda kitabxana öz fəaliyyətini əzəli torpağımız olan doğma Şuşada yeni qurulmuş ağıllı şəhər və kəndlərdə yenitipli modern "smart" kitabxanalarda davam etdirəcək.

*Adilə Abdullayeva,*
*Tarix üzrə fəlsəfə doktoru*

ANALİTİK + AKTUAL

# İkili standartlar: uduzan hansı tərəfdir?

## Azərbaycan öz haqq yolunda inamla addımlayacaq, qarşısına çıxan istənilən səddi aşaraq daha güclü, daha qüdrətli dövlətə çevriləcək!




**Bizlər müxtəlif dövrlərdə Azərbaycana qarşı ikili standartların tətbiq edildiyini, haqsızlıqların mövcudluğunu dəfələrlə müşahidə etmişik. İstər İkinci Qarabağ müharibəsindən əvvəl, istərsə də sonra həmin tətbiq necə deyərlər, gündəmdə qalmaqda davam edir. Bu, ilk növbədə bir sıra siyasi qütbləri narahat edən bir amillə əlaqəlidir - Bakı müstəqil siyasət yürüdür, bu siyasəti ilə regionun lider ölkəsinə çevrilir və eyni zamanda, qarşısına qoyduğu bütün məqsədlərinə nail olur. Məhz bu kimi faktorlar sözügedən qütbləri ciddi şəkildə narahat edir.**

Elə isə gəlin Qərbdən başlayaq. Məlumdur ki, Qərb siyasi arealında kifayət qədər ermənipərəst qruplar, həmçinin lobbiçiliklər mövcuddur. O cümlədən, Qərbdə siyasi baxışlar istər dolayı, istərsə də birbaşa anti-müsəlman xarakterində formalaşıb və həmin xarakterə "xristian klubu" deyilən fakt da daxil edilə bilər. Azərbaycanın yalnız müsəlman ölkəsi deyil, həm də tolerant və multikultural ölkə olması da bu dairələri təlaşlandırır. Ermənistanla münasibətdə biz dəfələrlə həmin fərqləri müşahidə etmişik. Hətta ölkəmizdə baş verən kiçik bir məişət olayının həmin qüvvələrlə işbirliyində olan satılmış radikal müxalifət düşərgəsi tərəfindən özəl sifarişlər əsasında şişirdilməsi və siyasiləşdirilməsi dərhal Bakıya qarşı təzyiqlərlə, ittihamlarla müşahidə olunmağa başlayır. Bəli, həmin təzyiq və təsir mexanizmlərinin Azərbaycan üçün heç bir əhəmiyyəti yoxdur və qətiyyətli siyasət reallığı ikili standartların tətbiqinin irəliləməsinə imkan vermir. Amma açığını desək, bütün bunlar olmaya da bilərdi. Qərb doğrunu, həqiqəti ön götürməklə Azərbaycandakı demokratik dəyərləri səmimiyyətlə qiymətləndirə bilərdi. Təəssüf ki, bizlər bunu da müşahidə etmirik.

### Qərb Ermənistandakı polis zorakılığına niyə susqun davranır?

Müşahidə etdiyimiz isə bu günlərdə Ermənistanda baş verən olaylara Qərbin susqun davranmasıdır. Məsələn, Ermənistanda revanşist qüvvələrlə hakimiyyət arasında baş verən və get-gedə artan qarşıdurmalarda hökumət müxalifətçilərə qarşı aşırı güc və polis zorakılığı tətbiq edir. Maraqlıdır ki, insan haqları və demokratiya ətrafında hay-haray salaraq Azərbaycanı ittiham edən Qərb dairələri Ermənistanda pozulan insan hüquqlarına qarşı heç cınqırını da çıxarmır, sanki belə də olmalıymış kimi davranır. Təbii ki, bu kimi ikili standartları nəzərdən keçirərkən bizim bütün bunlarla bağlı haqlı suallarımız yaranır. Amma bu suallara da cavab verilmir və bir daha sübut edilir ki, "xristian klubu" iş başındadır və onların əsas məqsədləri, məqamları güclü, inkişaf edən Azərbaycanı hədəfə almaqdan ibarətdir. Onların daha çox imkanları olarsa, yaxud onlara bir azacıq imkanlar verilərsə qeyri-qanuni, səbəbsiz sanksiyalar irəli sürüb ikili standartlı siyasətlərini yürütməyə davam edərlər. Biz elə də uzağa getməyərək Ermənistanın türk xalqına, İslam dininə nifrət hissləri, İslamafobiya, azərbaycanofobiya meyillərinin pik həddə çatdığını da göstərə bilərik. Amma bu faktlar Qərb üçün nədənsə maraqlı deyil və İrəvana qarşı hər hansı təzyiqlər göstərilmir (?!).

### Bu, Qərbin ayrıseçkiliyi deyildisə, bəs nə idi?

Yaxud, daha bir faktı da xatırlada bilərik. 44 günlük müharibə bitər-bitməz münaqişə gedən ölkələrə milyardlarla vəsait ayıran Qərb Ermənistan-Azərbaycan müharibəsi başa çatandan sonra 30 il işğala məruz qalan, böyük bir əraziləri talanan Azərbaycana cəmi 140 milyon avro ayırmaqla kifayətləndi. Amma Azərbaycandan 3 dəfə kiçik olan, ovuc boyda işğalçı Ermənistana 1,6 milyard, avro ayırdı. Bu, Qərbin ayrseçkiliyi deyildisə, bəs nə idi? Düzdür, ola bilsin ki, Azərbaycanın haqlı iradları sayəsində sonradan həmin məbləğlərdə dəyişikliklər olsun, amma faktfaktlığında qalır və təkcə qeyd edilən amil özü-özlüyündə hər şeyi bütün çılpaqlığı ilə ortaya qoymaqdadır. Əslində, Azərbaycan Prezidenti İlham Əliyevin də vurğuladığı kimi, ölkəmizin, dövlətimizin kimlərinsə yardımlarına ehtiyacı da yoxdur, belə ki, Azərbaycan öz gücü hesabına işğaldan azad edilmiş ərazilərini yenidən bərpa edə, abadlığa çevirə bilər və bunu edir də! Daha dəqiq desək, bu gün heç kimin köməyi olmadan beynəlxalq məhkəmələrdə öz haqqını, hüququnu müdafiə edən Azərbaycan dövləti, öz vəsaiti hesabına da işğaldan azad etdiyi ərazilərdə quruculuq işləri aparır. Bəs onda beynəlxalq təşkilatlar Azərbaycanın hansı dərdinə dərmandırlar? Göründüyü kimi heç bir..!

### Rusiyanın "Sputnik" və RİA media qurumları daimi olaraq, mütəmadi şəkildə anti-Azərbaycan xarakterli dezinformasiyalar yaymaqdadırlar

Ancaq ikili standartların tətbiqi yalnız Qərblə bağlı deyil. Biz həqiqətlərin saxtalaşdırılması, dezinformasiyaların verilməsi kimi faktları da müşahidə etməkdəyik və bu, eyni zamanda qonşumuz, müttəfiqimiz hesab edilən Rusiyanın bir sıra media qurumları tərəfindən də görünməkdədir. Açıq-aşkar erməni iddialarını, işğalçılıq xəstəliyini müdafiə edən Rusiyanın "Sputnik" və RİA media qurumları daimi olaraq, mütəmadi şəkildə anti-Azərbaycan xarakterli dezinformasiyalar yaymaqdadırlar. Maraqlıdır ki, yalnız bu media qurumları deyil, eləcə də digər məlum mətbuat çevrələrinin ayrı-ayrı şəxsləri Azərbaycana qarşı sanki "səlib yürüşü" aparırlar və ən təəccüblüsü isə budur ki, onların bir çoxu məhz Kremlin idarəçiliyi altında fəaliyyət göstərirlər. Sual yaranır - əgər Rusiya ilə Azərbaycan arasında müttəfiqlik bəyannaməsi mövcuddursa, əgər hər iki ölkə arasında iqtisadi və s. əlaqələr yüksək səviyyədə qurulubsa və bunu Rusiyanın dövlət başçısı Vladimir Putin də zaman-zaman bəyan edirsə, onda "Sputnik", yaxud RİA və s. kimi media qurumları hansı məzhəbə qulluq edirlər?

Fakt budur ki, onlar erməni məzhəbinə qulluq etməklə yanaşı, Rusiyanın da pərdəarxası mövqeyini nümayiş etdirirlər, sifarişlər həyata keçirirlər və söz yox ki, belə bir ikili yanaşmalar, ya da ikili standartlar heç vaxt yaxşı hər hansı bir məsələyə gətirib-çıxarmayacaq. Qeyd edək ki, adıçəkilən bu qurumların da təməlində ermənilərin dayanması sirr deyil. Bu isə belə qənaətə gəlməyə zəmin yaradır ki, Rusiyadakı erməni lobbisi bu ölkənin müxtəlif yüksək kürsülərinə çıxışlara malikdirlər və bundan da bilavasitə Azərbaycana qarşı istifadə edirlər.

### Azərbaycana qarşı tətbiq edilən ikili standartlar yalnız onların özlərinə mənfi təsirlərini göstərməyə davam edəcək

Beləliklə, fakt budur ki, ikili standartlar davam edir və əlbəttə ki, Azərbaycanda formalaşmış və get-gedə daha da güclənən xalq-iqtidar birliyi bu standartları heç etmək gücündədir. İstər Qərb, istərsə də Rusiyadakı məlum qüvvələr bunu dərk etməlidirlər. Bütün bunların yerinə isə Azərbaycana qarşı ədalətli mövqelər nümayiş olunsaydı daha yaxşı olmazdımı? Ümid edək ki, onlar bu sual ətrafında daha dərindən düşünməyə vaxt tapacaqlar. Əks halda, Azərbaycana qarşı tətbiq edilən ikili standartlar yalnız onların özlərinə mənfi təsirlərini göstərməyə davam edəcək, Azərbaycan isə öz haqq yolunda inamla addımlayacaq, qarşısına çıxan istənilən səddi aşaraq daha güclü, daha qüdrətli dövlətə çevriləcək. Buna isə həmin dairələrin heç bir şübhələri olmasın!

*Rövşən RƏSULOV*

# CAVİDİN RUHUNA HÖRMƏT NAMİNƏ



***Hörmətli oxucular, Cavidsevənlər!***

Bu yazını dahi şair-dramaturq, filosof Hüseyn Cavidin qızı mərhum Turan Cavidin 1998-ci il martın 12-də "Azərbaycan" qəzetinin redaksiyasına göndərdiyi müraciətdən parçalar ilə başlamaq istəyirəm.

"Hörmətli ədəbi ictimaiyyət! Hörmətli Cavidsevərlər!

Son illərdə Hüseyn Cavid irsinin öyrənilməsi, təbliği, şairin xatirəsinin əbədiləşdirilməsi istiqamətində respublikada görülən işlər dərin minnətdarlıq duyğuları oyadır. Övlad kimi məni ən çox sevindirən cəhətlərindən biri budur ki, artıq Bakıda şairin adı ilə bağlı mərkəz var. Hörmətli Prezidentimiz, Cavid xatirəsinə hər kəsdən daha artıq diqqət və qayğı göstərmiş cənab Heydər Əliyevin qətiyyəti sayəsində nəhayət ki, uzun illərdən bəri gözlənilən məqsəd həyata keçib - Elmlər Akademiyasında Hüseyn Cavidin Ev-Muzeyi yaradılıb. Burada yalnız Cavidlə bağlı yadigarlar nümayiş etdirilmir, həm də onun həyat və yaradıcılığının ayrı- ayrı problemləri ətrafında elmi-tədqiqat işləri aparılır.

Məni respublika ədəbi və elmi ictimaiyyətinə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin rəhbərlərinə , təhsil ocaqlarına, qəzet və jurnal redaksiyalarına, mədəniyyət müəssisələrinin başçılarına müraciət etməyə bir nigarançılıq vadar eləyir. Cavid və özü haqqında işıq üzü görən yazılara da nəşr edilən əsərlərində, pyeslərinin səhnələrdəki ifasına da çox vasvası münasibət vardı. O, buraxılan səhvlərə, təhriflərə, qeyri-ciddi münasibətlərə çox narahat olurdu. İndi mən də eyni hissləri vaxtaşırı yaşamalı oluram..."

Müraciətin sonunda Turan xanım ictimaiyyətə bildirir: "Mənim yeganə arzum budur ki, atam haqqında yalnız doğru, yanlışsız, təhrifsiz yazılmış əsərlər işıq üzü görsün."

Turan Cavidin bu müraciətinə baxmayaraq Cavidlər ailəsinin ruhlarını incidən səbəblər yenə də ortaya çıxır.

2009- cu ildə nəşr olunmuş, müəlliflər Rafiq İsmayılov, Gülşən Orucova, Zahid Xəlilov və Dilrubə Cəfərovanın tərtib etdikləri "Azərbaycan dili " ( 2-ci sinif üçün dərslik) kitabının 50-ci səhifəsində Hüsey Cavidin məşhur "Qız məktəbində" şeiri "Məktəbli qız" adı ilə tərcümə olunaraq nəşr olunmuşdur. (Tərcüməyə ehtiyac var idimi) Həmin vaxt H.Cavidin Bakı və Naxçıvan şəhərlərindəki ev-muzeylərində, ""Turan Cavid" Qadın Mərkəzi" İctimai Birliyində qəzetin çaldığı həyəcan təbilinə dərhal münasibət bildirilmişdi.

Təxminən 2013-cü ildə nəşr olunmuş " Bağçada və məktəbdə 101 şeir (Kitabın heç bir yerində nəşr ili göstərilmir) adlı kitabda Hüsey Cavidin" Qız məktəbində" şeiri "Gülbahar" adı ilə təqdim olunur. Kitab Bakıda, "Qələm" MMC nəşriyyatında işıq üzü görüb. Nəşrin rəhbəri Pərviz Eyyubov kitaba aşağıdakı məzmunda xəbərdarlıq da daxil edib: "Müəlliflik haqqı qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı bir hissəsini çap etdirmək, surətini çıxartmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir".

Burada hansı müəllifik hüququ qorunur? Heç bir əsas olmadan şeirin adını dəyişdirilib, hətta şeirin yanında verilmiş illüstrasiyanın da məzmuna heç bir aidiyyatı yoxdur. Narahatlıq yaradan səbəblərdən biri də son illər internet saytlarında Hüseyn Cavidə aid olan səhifələrdə dahi şairin ailəsi ilə, dostları ilə və müxtəlif illərdə olan tək şəkilləri göstərilir. Həmin səhifədə bir rəngli portret yayılmışdır ki, bu da Hüseyn Cavidin özü deyil, hər hansı bir mərkəzi, yaxud əyalət teatrlarından birinin aktyoru olan, bəlkə də hər hansı mülki bir şəxsin Cavid geyimində olan şəkilidir. Həmin şəxs bu şəkildə özünü şairin 1923-cü ildə çəkilmiş foto-şəklindəki geyimində təqdim edir. 1923-cü ildə çəkilmiş orijinal fotoda şairin xarakteri onun üz cizgilərindən aydın sezilir. Cavidə oxşayan şəxsin rəngli şəklində isə başa düşmək olmur ki, şair hansı xoş gününə gülümsəyərək özündən razı halda əyləşmişdir?! Hər iki şəklə diqqətlə baxanda fərq aydın görünür. Bəla burasındadır ki, bəzi nəşriyyat və redaksiyalarda, Cavidlə bağlı keçirilmiş müxtəlif tədbirlərin proqramlarında, konfransların materialları nəşr olunmuş kitablarda da Cavidəoxşarın həmin rəngli şəklindən istifadə olunmuşdur. Ən maraqlısı isə budur ki, Hüseyn Cavidin ömür boyu rəngli foto-şəkli olmayıb.

2019-cu ildə orta məktəb şagirdləri, MİQ və sertifikasiyaya hazırlaşanlar üçün vəsait, 5-11-ci siniflər üçün ədəbiyyat dərsliyinin cildinin üzərində şair və yazıçıların şəkilləri təqdim olunub. Cavidin orijinal şəkli əvəzinə burada yenə də Cavidəoxşar şəxsin şəkli verilmişdir. Hətta kitabın içərisində, Cavidə aid bölmədə şair-dramaturqun " Ana" pyesi verilmiş, səhifənin yuxarı hissəsindıə yenə də həmin yanlış şəkildən istifadə olunmuşdur.

2020-ci il aprel ayının 30-da, gecə saat 11-də indi fəaliyyət göstərməyən "Lider" Telekanalının "Gecənim sehrində" verilişində də arxa planda bir neçə şairin şəkillərilə yanaşı həmin Cavidəoxşar şəxsin şəkli qoyulmuşdu.

Çox təəccüblüdür ki, müasir Cavidşünaslarımız niyə indiyə qədər bu yalnışlıqlara qarşı öz etirazlarını bildirmir, müşahidəçi mövqedə duraraq ciddi addımlar atmır, müvafiq tədbirlər görülməsi üçün təşəbbüs göstərmirlər? Bu il dahi şairin anadan olmasının 140 illik yubileyi təntənə ilə qeyd olunacaqdır. İnanıram ki, bu yazıdan sonra yubiley ərəfəsində həmin yanlış foto-şəklə bir daha müraciət olunmayacaqdır.

Hörmətli yazarlar, jurnalistlər, naşirlər və tədbirlərin təşkilatçıları. Sonda sizlərdən çox xahiş edirəm ki, Hüseyn Cavid haqqında yazılar, verilişlər, kitablar və tədbirlər hazırlayanda mütləq şairin özünə məxsus olan foto-şəkillərindən istifadə edin.

***BƏHRUZ AXUNDOV***
***Hüseyn Cavidin Naxçıvandakı Ev-Muzeyinin ilk direktoru, əməkdar mədəniyyət işçisi.***

# Tank ordusunun Suvorovu- 2 dəfə Sovet İttifaqı Qəhrəmanı, general Həzi Aslanovun qələbə tarixi

Əfsanəvi Həzi Aslanov- Azərbaycan tank qoşunlarının generalı, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovu müharibə veteranları, hərb tarixçiləri, Sovet dövrünün nəsli və müasir Azərbaycan gəncləri belə adlandırırlar. Böyük Vətən Müharibəsi illərində onun nə hücumda, nə də müdafiədə tayı-bərabəri yox idi. Onun döyüş taktikası həmişə gözlənilməz, cəsarətli və düşmənə qulaq asan olub. Görünürdü ki, bu, onun şərq xasiyyətini, xarakterini əks etdirir. Məhz Həzi Aslanovun xarakteri, onun hərbi hazırlığı və xüsusi döyüş taktikası Sovet ordusunun İkinci Dünya Müharibəsinin həlledici əməliyyatlarında çoxsaylı qələbələr qazanmasına kömək etdi. Mayın 9-u ərəfəsində "Moskva-Bakı" portalı Tank Qüvvələrinin generalı Həzi Aslanov haqqında məqalə hazırlayıb. Məqaləni oxucularımıza təqdim edirik.





**Şəkildə: 3-cü Belarus Cəbhəsi 3-cü mexanikləşdirilmiş korpusunun komandiri qvardiya general-leytenantı V.T. Obuxov (sağdan 2-ci) 35-ci tank briqadası komandiri, qvardiya general-mayoru Həzi Aslanova (sağdan 3-cü) B istiqamətindən düşmənə hücum etmək əmri verir.**



Həzi Aslanovun döyüş yolu çox uzun və heç şübhəsiz qəhrəmanlıq yoludur. Böyük Vətən Müharibəsi isə onun ilk döyüşü deyildi. 1939-cu ilin sentyabrında Polşa kampaniyasında və 1939-1940-cı illər Sovet-Fin müharibəsində iştirak etmişdir. Həzi Aslanov Böyük Vətən Müharibəsini 15-ci Mexanikləşdirilmiş Korpusa verilən 10-cu Panzer Diviziyasının tərkibində qarşılayıb. 1941-ci il avqustun ortalarında Kiyevin müdafiəsində fəal iştirak etmişdir. Aslanovun tankçıları son tanka qədər vuruşdular, komandir şəxsən batalyonu hücuma apardı. Bu döyüşlərdə Həzi Aslanov sağ ayağından iki güllə, başından isə ağır qəlpə yarası alsa da, döyüş sıralarında qalmaqda davam edib.

Həzi Aslanov üçün növbəti əlamətdar döyüş Stalinqrad döyüşü oldu. O, ilk günlərdən orada iştirak edib, 55-ci tank briqadasına komandanlıq edib. Stalinqrad döyüşü həm ordu, həm də Aslanov üçün strateji əhəmiyyət kəsb edirdi. Axı almanlar həm də onun doğma şəhəri Bakıya, onun əziz insanlarının yaşadığı Bakıya soxulmaq istəyirdilər. Hitlerin sahib olmaq istədiyi Sovet İttifaqının neft ehtiyatları əsasən orada cəmləşib. Həzi Aslanov bunu başa düşürdü və ona görə də döyüşdə məğlub olmaq sadəcə mümkün deyildi.

Stalinqrad döyüşündə Həzinin tank alayı xüsusilə fərqlənmiş, polkovnik-leytenant Həzi Aslanov Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Sonra Stalinqrad yaxınlığındakı döyüşlərdə Aslanov sonradan "Aslanovun at nalı" adını almış özünəməxsus döyüş taktikası ilə çıxış etdi. Bu taktikanın gedişində tabeliyində olan bölmələri manevr edərək hücum bucağını sürətlə dəyişir, cinahları yarıb, düşmən müdafiəsini yarırdı. Almanlar bu texnikanı "fırlanan manevr" adlandırırdılar. Və bu, Aslanovun tank qoşunlarının yeganə taktiki texnikası deyildi.

### Rusiyalı hərb tarixçisi, tarix elmləri namizədi Aleksey İsayev:



"Müxtəlif tarixi hərbi əməliyyatları araşdırmaq üçün sənədlərdən istifadə edirəm. Həm də qəhrəman insanlara (komandirlərə, generallara) baxmaq mənim üçün həmişə maraqlıdır, eyni adam müxtəlif şəraitlərdə fərqli hərəkət edir. Və bu baxımdan general-mayor, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov yaxşı nümunədir. O, təkcə Stalinqrad döyüşündə deyil, 1944-cü ildə Belarusdan başlayan "Baqration" hücum əməliyyatı zamanı da çox səmərəli çıxış edib. Bundan əvvəl Aslanov əsasən müdafiə döyüşlərində təcrübəyə malik idi, lakin burada, tamamilə gözlənilmədən, böyük hücum əməliyyatında çox bacarıqlı hərəkət etdi. Almanlar onun taktikasını "kirpi" adlandırırdılar. Bir dəstə irəlilədi, vacib bir nöqtəni tutdu, hərtərəfli müdafiə təşkil etdi və digər qruplar gələnədək özünü qorudu. Həzi Aslanov bu texnikanı dəfələrlə minimal itki ilə istifadə edib. Amma deməliyəm ki, bu texnika müəyyən şəxsi cəsarət tələb edirdi, çünki əslində onlar özlərini əhatəyə alınmış, əsas hissə ilə heç bir əlaqəsi olmayan vəziyyətdə gördülər və bu, çox riskli idi. Və dostlarınızın artıq yolda olduğunu bilirsinizsə və eyni zamanda bir dostun etibarlı çiynini hiss edirsinizsə, bu çox mənəvi bir hərəkət idi. Baqration əməliyyatının ilk günlərində bölmələrimiz hələ alman müdafiəsinin taktiki dərinliyində olarkən Həzi Aslanovun briqadası 150 alman əsgərini əsir götürmüş, cəmi 2 nəfər itki vermişdi.

Çoxsaylı tarixi faktlardan da göründüyü kimi, Həzi Aslanov qısa müddət ərzində tabeliyində olanlara yüksək səviyyəli hazırlıq keçib. Bu, alayın döyüş qabiliyyətinin qorunmasına kömək etdi. Böyük Vətən Müharibəsi veteranlarının xatirələrində deyilir ki, Həzi Aslanovun əsgərlərinə xüsusi qayğısı olub.

### İkinci Dünya Müharibəsi veteranı Mariya Mixaylovna Roxlina:



"Şəxsən mənim Stalinqrad döyüşündə birlikdə iştirak etməyimizə baxmayaraq, Həzi Aslanovla yollarım kəsişmədi. Mən tibb işçisi və tank ekipajlarının tibb bacısı idim, amma biz müxtəlif briqadalarda idik. Mən onun haqqında yalnız eşitdim, çox eşitdim və yalnız yaxşı sözlər eşitdim. Döyüş yoldaşları onun haqqında çox danışırdılar. Orduda, necə deyərlər, komandirin əli çox möhkəm, əmri də çox möhkəm olmalıdır. Heç kim qaydaları poza bilməz. Nizamnaməni pozanlarla amansız davranırdılar. Və Həzi Aslanov da nizamnaməni pozanlarına qarşı amansız davranıb. Amma eyni zamanda əsgərlərinə böyük qayğı ilə yanaşır, onların bir daha təhlükə altında qalmasına imkan vermirdi. Volqoqradda (keçmiş Stalinqrad) Həzi Aslanovun adına məktəb var və Həzi Aslanovun şərəfinə Mamayev Kurqanı üzərində qara xatirə lövhəsi vurulub. İldə 2 dəfə ora gedirəm".

Həzi Aslanov ağlabatan, düşünülmüş riski sevirdi. Əsgərlər komandirə cəsarətinə, mətanətinə və hazırcavablığına görə hörmət edirdilər, bu da bir neçə dəfə insanların həyatını xilas etdi.

### Rusiyalı hərb tarixçisi, tarix elmləri namizədi Aleksey İsayev:

"Bir dəfə Həzi Aslanov öz hazırcavablığı sayəsində almanları elə qorxudub ki, döyüşə başlamadan döyüş meydanını tərk ediblər. Vileyka şəhəri uğrunda gedən döyüşdə o, gözlənilməz tapıntıdan istifadə etdi. Əsgərlərinə ən yaxın kənddə olan bütün kənd təsərrüfatı texnikasını döyüş meydanına çatdırmağı əmr etdi. Tankların arasına avadanlıq yerləşdirilib. Səsgücləndiricilər quraşdırılıb, mühərriklər və faralar yandırılıb. Texnologiyada üstünlüyə malik olan alman qoşunları baş verənlərdən qorxurdular. Onlar elə bilirdilər ki, minlərlə sovet tankı onlara doğru irəliləyir. Sonda geri çəkildilər. Belə ki, Vileyka şəhəri döyüşsüz alınıb.

**Həsi Aslanovun nəvəsi Həzi Aslanov: "Mənim qəhrəman babam təbiətcə çox mübariz insan olub. Qorxu ilə tanış deyildi. Qorxunun insana yaraşmayan zəiflik olduğuna inanırdı.**

Hər bir əsgərin olduğu kimi Həzi Aslanova da evdən məktublar gəlirdi. Bir gün 8 yaşlı oğlu Tofiqdən çox təsirli məktub alır. Uşaq atasından faşistləri necə məğlub edəcəyini soruşdu. Həzi Aslanov oğluna belə cavab verib: "Hörmətli Tofiq, mən sənin əmrini yerinə yetirirəm. Aprelin 22-də hücuma keçdik və öz tankımla 200 faşisti məhv etdim. Bu sizin xoşbəxtliyiniz üçün lazımdır, xalqımızın xoşbəxtliyi üçün bu lazımdır".



Həzi Aslanov rəqəmlərlə deyil, məharətlə mübarizə aparıb və qalib gəlib. Onun şəxsi şücaəti əfsanəvi idi. Yeddi dəfə o, tankçıların dediyi kimi öz "aslanlıları" ilə mühasirəni yarıb, dəfələrlə yaralanıb, tanklarda yandırılıb. Amma qələbə həmişə onunla qaldı.

Mayın 9-na, Qələbə gününü qeyd etməyə Həzi Aslanovun cəmi 3 ayı çatmadı. 1945-ci il yanvarın 24-də Latviyanın Priyekule şəhəri yaxınlığında kəşfiyyatda iştirak edib. Cəbhə xətti ilə hərəkət edərkən maşının yanında mərmi partladı. Həzi Aslanov ağır yaralandı. Yanvarın 25-də o, səhra qospitalında dünyasını dəyişdi. Onun cəmi 34 yaşı var idi.

Bu gün Həzi Aslanovun adı Bakı, Lənkəran, Volqoqrad və Smorqonda Zabitlər Evinə, metro stansiyasına, küçələrə verilir. Bakıda və Volqoqradda məktəblər onun adını daşıyır. Lənkəranda Qəhrəmanın ev-muzeyi yaradılıb. Belarusun Vileyka şəhərində ona abidə ucaldılıb.

Qəhrəman azərbaycanlı komandir Rusiyada da yaxşı xatırlanır. Onun haqqında çəkilmiş filmlə Həzi Aslanovun xatirəsi əbədiləşdirilib. Filmin müəllifi Yelena Nilayeva məlumat toplamaq üçün Azərbaycana səfər edib, Lənkərana, Aslanovun doğulduğu yerlərə baş çəkib, yaxınları ilə söhbət edib.




### Jurnalist Yelena Nilayeva:

"Lənkəranda muzeydə idim, gözəl muzey, Həzi Aslanov haqqında çox maraqlı əhvalat danışırlar. Azərbaycanda Həzi Aslanovun nə qədər şərəfləndiyini sözlə ifadə etmək mümkün deyil, bunu ancaq Bakıya səfər etməklə hiss etmək olar. Sözlər bunu çatdıra bilməz. Və əgər Rusiyada Həzi Aslanovun şücaətlərindən yalnız tarixçilər və Böyük Vətən Müharibəsi qəhrəmanları ilə maraqlananlar bilirsə, Azərbaycanda Həzi Aslanova mütləq pərəstiş var.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov Bakıda, Dağlıq Parkda- Şəhidlər Xiyabanında dəfn edilib. Orada onun abidəsi də var.

Həzi Aslanov öz Vətəninin yeganə qəhrəman oğlu deyil. Böyük Vətən Müharibəsində Qələbə uğrunda gedən döyüşlərdə 300 min azərbaycanlı canından keçmişdir. Onların bir çoxu Buxarest, Vyana, Praqa və Belqradı azad edən əfsanəvi 223-cü Azərbaycan atıcı diviziyasının tərkibində idi. Və bu diviziyanın inanılmaz rəşadətləri haqqında xüsusi yazımız olacaq.

***Müəllif - Tatyana Novikova***
***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ

# Səs

7 may 2022-ci il

# Həkimdən XƏBƏRDARLIQ: "TikTok" beyin hüceyrələrini tükədir!




Gənclərin hər gün asılıb qaldığı TikTok, Teleqram və İnstraqram sosial şəbəkələri, səs-küylü videolar, eləcə də çox sayda filmlər beynin tükənməsinə səbəb olacaq. Bu isə gələcəkdə indiki nəsildə çox ciddi beyin problemləri yarada bilər.

Rusiyalı həkim terapevt Oleq Abakumov gənclərdə TikTok səbəbindən beyin funksiyalarında problem yaşadıqlarını bildirib: "Gün ərzində 4 saatdan çox xəbərlər, kliplər, filmlərə baxmaq, sosial şəbəkələrdə olmaq beynin vəziyyətinə çox mənfi təsir edir.

Qısa, lazımlı-lazımsız informasiyalarla dolu olan TikTok-da beyinə lazım olmayan informasiya çoxdur. Bu da onun tükənməsinə səbəb olur.

Hüceyrələr bu qədər informasiya axını ilə yüklənməyə hesablanmayıb. Təsəvvür edin, 1 aylıq informasiyanı siz 3 sutkada beyinə ötürürsüz. Bu yorğunluq, tükənmə güclü idman məşqləri və yarışlarından sonra əzələlərin yorulmasına bərabərdir. İllər sonra beyii normal fəaliyyətə bərpa etmək çətin olacaq. Hər kəs TikTok-a baxma müddətini azaltmalıdır. Gündə 2 saatdan artıq sosial şəbəkələrdə olmamağa çalışın"./Bakupost.az

# Salahdan

## "Real"a MESAJ: "İntiqam almaq vaxtıdır!"




"Liverpul"un futbolçusu Məhəmməd Salah Çempionlar Liqasının final mərhələsində "Real"a qarşı oynayacaqları matç barədə danışıb.

Qol.az "Daily Mail"ə istinadən xəbər verir ki, 29 yaşlı hücumçu 2018-ci ildə turnirin finalında Madrid təmsilçisinə uduzduqlarını (1:3) xatırlayıb və bu dəfə qisas almaq istədiklərini deyib: "İndi bütün futbolçularımız kimi mən də Çempionlar Liqasının finalına çıxdığımız üçün çox həyəcanlıyam. Oyunun çətin keçəcəyinə şübhəm yoxdur. "Real" bir çox güclü komandanı məğlub edib. Diqqətimizi oyuna yönəltməliyik. Biz qisas almaq istəyirik. 2018-ci ildə onlara uduzduq. Çox kədərli gün idi. İntiqam almaq vaxtıdır".

Xatırladaq ki, final oyunu mayın 28-də Parisdəki "Stad de Frans" stadionunda keçiriləcək.

## Mənzildə cəsəd aşkarlanıb



**Fövqəladə Hallar Nazirliyinin (FHN) 112 - qaynar telefon xəttinə daxil olan məlumata əsasən, Bakı şəhərinin Nərimanov rayonunda bir nəfər mənzildə bağlı qapı arxasında köməksiz vəziyyətdə qalıb.**

**FHN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hadisə yerinə cəlb olunan nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq xilasetmə qüvvələri mənzilin giriş qapısını açıb və orada aşkarlanan 1986-cı il təvəllüdlü Əliyev Şamil Azad oğlunun cəsədini aidiyyəti üzrə təhvil veriblər.**

## Hava taksiləri istehsal olunacaq




Gələn il bir neçə şirkət kommersiya məqsədli daşımaların sertifikatlaşdırılması məqsədilə şaquli qalxan və enişli elektrik təyyarələrinin eyni vaxtda sınaqlarını keçirəcək. SIA xarici saytlara istinadla xəbər verir ki, ABŞ-ın Kaliforniya ştatında da yerləşən "Joby Aviation" şirkəti təqribən 240 kilometr məsafə qət edən 10-dan çox beşyerlik hava taksisi istehsal etmək niyyətindədir.

Bundan başqa, Almaniyanın "Volocopter" şirkəti də 2024-cü il Olimpiadasında hava taksisi buraxmağı planlaşdırır.

## Beynin qocalmasının qarşısını alan VACİB VİTAMİNLƏR

Bədənimiz daim qocalır. Bu, heç kimə sirr deyil, bütün səylərimizi qocalma əleyhinə, dəriyə qulluğa və qırışların aradan qaldırılmasına sərf etsək də, bədənin gizli qalan hissələri haqqında daha az düşünürük. Beyin demək olar ki, bütün digər orqanlardan daha sürətli qocalır: yaddaşın pisləşməsi və zehni proseslərin yavaşlaması 30 yaşa qədər müşahidə oluna və sonra vəziyyət ağırlaşa bilər. Yaxşı xəbər budur ki, bir neçə qaydaya əməl etsəniz, beynin qocalması yavaşlaya bilər.



Statistikaya görə, bütün dünyada işləyən yetkin insanların 25 faizdən çoxu (bu, dörddə birdir) beyin funksiyasını yaxşılaşdırmaq üçün ən azı 1 dəfə vitamin əlavələrinin köməyinə müraciət edir. Belə yüksək tələbat sayəsində bazarda beyin funksiyası üçün çoxlu sayda bioəlavələr var və onların hamısı demək olar ki, ani və hiss olunan təsir vəd edir.

Harvard alimlərinin son araşdırmasına görə, bu məsələdə həqiqətən size yalnız 5 əlavə kömək edəcək - üç B vitamini - B6, B9 və B12, E vitamini və Omeqa-3 yağ turşuları. Bu maddələr beyin hüceyrələrində membranların qurulması, həmçinin iltihablı reaksiyaların qarşısını almaq və oksidləşdirici stressi azaltmaq üçün stimullaşdırılır. Statistikaya görə, bu maddələrin çatışmazlığı yaşla əlaqəli zehni qabiliyyətlərin kəskin azalması riskinin daha yüksək olması ilə əlaqələndirilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**